21 (1171) 27 may - 2 iyun 2021-ci il

İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

YENİ TEXNOLOGİYALARIN TƏTBİQİ İSTİQAMƏTİNDƏ İŞLƏR DAVAM ETDİRİLİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də "Signify" - əvvəlki adı "Philips Lighting" olan şirkətin baş icraçı direktoru Erik Rondolatı və şirkətin rəhbərliyinin digər nümayəndələrini qəbul edib.

Görüşdə "Signify" şirkəti tərəfindən Azərbaycanda həyata keçirilən layihələrin icrası müzakirə olunub.

Prezident İlham Əliyev Bakı, Sumqayıt və Şamaxı şəhərlərinin küçələrinin işıqlandırılması üçün şirkət tərəfindən görülən işlərdən məmnunluğunu bildirilib, bu işlərin nəqliyyatın və əhalinin təhlükəsizliyi baxımından mühüm əhəmiyyət daşıdığını qeyd edib.

Azərbaycanda yaradılan əlverişli biznes və investisiya mühitinə görə dövlətimizin başçısına minnətdarlığını ifadə edən Erik Rondolat rəhbərlik etdiyi şirkət tərəfindən ölkəmizdə həyata keçirilən işlər barədə Prezident İlham Əliyevə ətraflı məlumat verib, Bakı və Sumqayıtda işlərin yekunlaşdığını, Şamaxıda isə başa çatmaq üzrə olduğunu bildirib. Qeyd edib ki, tətbiq olunmuş yeni texnologiyalar sayəsində bu layihələrdə elektrik enerjisinə 50 faiz qənaət təmin edilib. Gələcəkdə isə bu qənaət 75-80 faizə çatdırılacaq.

Prezident İlham Əliyev yeni texnologiyaların tətbiqi istiqamətində işlərin davam etdirilməsinin zəruriliyini bildirib və növbəti mərhələdə Gəncə, Mingəçevir, Şəki, Qəbələ, Şirvan və Lənkəran şəhərlərində də küçə işıqlandırılması layihələrinin hazırlanmasının vacibliyini qeyd edib. İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən infrastruktur layihələrindən danışan dövlətimizin başçısı bildirib ki, Şuşa və Ağdam şəhərlərinin baş planlarının hazırlanması istiqamətində ciddi işlər gedir və "Signify" şirkətinin baş planların hazırlanması mərhələsində bu prosesə qoşulması məqsədəuyğundur.



"HAZIRDA ÖLKƏLƏRİMİZ ARASINDA ƏLAQƏLƏR BƏLKƏ DƏ ƏMƏKDAŞLIĞIMIZIN TARİXİNDƏ ƏN YÜKSƏK SƏVİYYƏDƏDİR"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də İran İslam Respublikasının Xarici İşlər naziri Məhəmməd Cavad Zərifi qəbul edib.

Prezident İlham Əliyev bildirib: - Mən sizin səfərinizdən əvvəl məlumatlara baxdım və gördüm ki, bizdə ticarət dövriyyəsində artım var. Pandemiyaya baxmayaraq, bu, çox müsbətdir. Prezident Ruhani və mənim tərəfimdən irəli sürülmüş bütün təşəbbüslər, qəbul olunmuş qərarlar həyata keçirilib. Biz Prezident Ruhaninin prezidentliyi dövründə əməkdaşlığın səviyyəsindən çox razıyıq, bu müddət başa çatır.

Biz bütün sahələrdə həqiqətən də böyük irəliləyişə nail olmuşuq. Düşünürəm ki, hazırda ölkələrimiz arasında əlaqələr bəlkə də əməkdaşlığımızın tarixində ən yüksək səviyyədədir. Əlbəttə ki, regionda yeni vəziyyətin - münaqişədən sonrakı vəziyyətin yaranması ilə əlaqədar yeni imkanlar, yeni çağırışlar var və sözsüz ki, İran və Azərbaycan iki qardaş ölkə olaraq səyləri əlaqələndirməli, regionda bütün bölgə ölkələrinin xeyrinə uzunmüddətli və dayanıqlı sülh şəraitində inkişafa töhfə verməlidir. Əminəm ki, İran hökuməti də eyni yanaşmanı paylaşır. Çünki münaqişə həll ediləndən sonra keçən dövrdə bizim çoxsaylı təmaslarımız olub. Yəqin ki, bu gün biz bu prosesin daha da rəvan keçməsi üçün bir neçə mühüm məsələyə toxunacağıq.

İranın Xarici İşlər naziri Məhəmməd Cavad Zərif deyib:

- Mən Sizi və Azərbaycan xalqını milli bayramınız münasibətilə əvvəlcədən təbrik etmək və Azərbaycana, bu regiona gətirməyə müvəffəq olduğunuz inkişafa dərindən heyran olduğumuzu ifadə etmək istəyirəm. Əməkdaşlığın səviyyəsi bizi məmnun edir və hesab edirik ki, Zati-alinizin, Prezident Ruhaninin və İran rəhbərliyinin ifadə etdiyi arzusuna çatmaq üçün biz hətta daha da artığını edə bilərik. Biz Sizin Azərbaycan torpaqlarının azad edilməsində tarixi rol oynadığınıza inanırıq və Sizi təbrik edirik.

PASHA Bank

Azərbaycan xalqını
28 May – Respublika günü
münasibətilə təbrik edir!

“AZƏRBAYCAN VAHİD İNTEQRASİYA EDİLMİŞ CƏNUBİ QAFQAZ REGİONUNUN BİR HİSSƏSİ OLARAQ ÖZ GƏLƏCƏYİNİ PLANLAŞDIRMAĞA HAZIRDIR”



Bu sözləri mayın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzində “Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri” adlı videoformatda müzakirələrdə çıxış edərkən deyib.

Prezident İlham Əliyev əvvəlcə pandemiya dövründə çox yaxşı fəaliyyətinə görə Nizami Gəncəvi Beynəlxalq Mərkəzini təbrik edib, bu cür təcrübənin bir araya toplanmasını bugünkü dünyada nadir hadisə adlandırıb.

O, deyib: - “Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri” mövzusunda müzakirəni yüksək dəyərləndirirəm, çünki bizim məhz buna ehtiyacımız var. Demək olar ki, 30 il çəkən işğal faktı səbəbindən, Azərbaycan öz mövqeyini birmənalı şəkildə bəyan etdi ki, biz ərazilər azad olunmayana qədər Ermənistanla əməkdaşlıq etməyəcəyik. Hesab edirəm, Ermənistanın özü də başa düşür ki, onlar çox böyük səhvə yol veriblər. Onlar vaxt itirdilər. Əgər bugünkü Ermənistandakı vəziyyətə nəzər salsaq, görərik ki, Ermənistan müstəqilliyi qazanan zaman ilə müqayisədə vəziyyət daha ağırdır. Çünki bu gün Ermənistanın ordusu belə yoxdur. O, tamamilə məhv edilib. Ölkə altı aydan çoxdur ki, daimi siyasi böhran içindədir. Cəmiyyətdə böyük dərəcədə inamsızlıq yaranıb, qarşılıqlı ittiham irəli sürülür. Bəzi siyasi liderlərin ritorikası hər hansı bir qəbul edilən çərçivədən tam uzaqdır. Bir sözlə, onlar vaxt itirdilər. Onlar Azərbaycanın enerji və daşımaların inkişafı təşəbbüslərindən məhrum oldular. Nəhayət, onlar işğal etdikləri əraziləri itirdilər. O ərazilər ki, onlara nə tarixi nöqteyi-nəzərdən, nə də ki, beynəlxalq hüquq baxımından məxsus deyildi. İndi isə, münaqişə başa çatdıqdan sonra, Dağlıq Qarabağ münaqişəsi, ilk növbədə, Azərbaycan tərəfindən, sonra isə ötən ilin 10 noyabr tarixli birgə Bəyanat ilə artıq həll olunub.

Biz indi gələcəyə baxmalıyıq. 30 illik işğala, azad olunmuş ərazilərdə genişmiqyaslı dağıntılara və onların məhv etdiklərinə baxmayaraq, Azərbaycan gələcəyə nəzər salmağa, vahid inteqrasiya edilmiş Cənubi Qafqaz regionunun bir hissəsi olaraq öz gələcəyini planlaşdırmağa hazırdır. Ümid edirik ki, vaxt gələcək və biz, sözün əsl mənasında, Cənubi Qafqazda fəal əməkdaşlıqdan və inteqrasiyadan danışacağıq. Biz artıq çox mühüm təkliflərlə və təşəbbüslərlə çıxış etmişik və yeri gəlmişkən, onlar 10 noyabr 2020-ci il tarixli birgə Bəyanatda da əks olunub. Bu, xüsusən də, kommunikasiyaların və yeni daşımalar dəhlizlərinin açılması ilə bağlıdır. Sizə deyə bilərəm ki, bu layihənin həyata keçirilməsi ilə bağlı iş artıq başlayıb. Azərbaycan bu məqsədlə artıq texniki və maliyyə imkanlarını ayırıb. Zəngəzur dəhlizi açıldıqdan sonra bütün region ölkələri üçün yeni imkanlar yaranacaq. Bu səbəbdən, bildirmək istəyirəm ki, Azərbaycan əməkdaşlığa və ümumi gələcəyimizin planlaşdırılmasına açıqdır, çünki biz istəsək də, istəməsək də qonşuyuq və yanaşı yaşamalıyıq və bir daha bu birgə yaşamanı öyrənməliyik.

Bu, asan deyil. Burada emosiyalar var. Xüsusən də, Azərbaycan xalqı azad edilmiş torpaqlara səfərlər etdiyi zaman və tam yerlə-yeksan olunan yerləri görəndə, siz yəqin ki, təsəvvür edə bilərsiniz, hansı hissləri keçirirlər. Lakin siyasətçilərin rolu öz gündəliklərini müdafiə etməkdən və yalnız qarşılıqlı fəaliyyət sayəsində regionda dayanıqlı inkişafın, sülhün və təhlükəsizliyin olacağını izah etməkdən ibarətdir.

Milli Məclisin komitə iclasında dövlət büdcəsinin icrası müzakirə edilib



Mayın 24-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib.

Komitə sədri Tahir Mirkişili iclası açaraq gündəliyə 3 məsələnin daxil edildiyini diqqətə çatdırıb. O, gündəliyin birinci məsələsi barədə məlumat verərək bildirib ki, “Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin icrası haqqında” qanun layihəsi (birinci oxunuş) və onunla bağlı hesabat komitənin müzakirəsinə çıxarılıb. Qanun layihəsi Hesablama Palatasının rəyi ilə birlikdə deputatlara təqdim edilib. Diqqətə çatdırılıb ki, dövlət büdcəsinin gəlirləri gözləniləndən 2,3 faiz çox, xərcləri isə 3,9 faiz az icra olunub. Komitə sədri bu göstəriciləri şərtləndirən amillərdən danışaraq 2020-ci ilin Azərbaycan xalqının tarixində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun şanlı Zəfəri ilə yadda qaldığını deyib. Bildirib ki, ötən il Azərbaycanın paralel olaraq 3 cəbhədə - pandemiya, qlobal iqtisadi böhran və erməni işğalçıları ilə mübarizədə Qələbə əldə etməsində dövlət büdcəsinin icrasında çevikliyin, maliyyə intizamının, iqtisadi resurslardan səmərəli istifadənin təmin olunması öz xüsusi rolunu oynayıb.

Sonra Maliyyə naziri Samir Şərifov 2020-ci ilin dövlət büdcəsinin icrasından ətraflı danışaraq, əvvəlcə büdcənin icra edildiyi makroiqtisadi mühiti xarakterizə edib. Bildirib ki, ötən il də pandemiya şəraiti dünya ölkələrinin iqtisadiyyatına mənfi təsirini davam etdirib, nəticədə iqtisadi fəallıqda həm keyfiyyət, həm də kəmiyyət nöqteyi-nəzərindən azalmalar müşahidə olunub.

Pandemiyaya, 44 günlük müharibəyə, qlobal böhrana və neftin qiymətlərinin, neftə tələbatın kəskin aşağı düşməsinə baxmayaraq, Prezident İlham Əliyevin digər sahələrdə olduğu kimi, iqtisadiyyat sahəsində də apardığı uzaqgörən siyasəti və atdığı çevik addımlar nəticəsində ölkəmizdə makroiqtisadi sabitlik qorunub saxlanıb, dövrün çağırışlarına operativ şəkildə adekvat reaksiya verilib. Nazir qeyd edib ki, operativ tədbirlər sayəsində ölkəmiz 2020-ci ilin şoklarından mətinliklə çıxıb, iqtisadiyyatda dərin tənəzzülün qarşısı alınıb, manatın sabitliyi qorunub, hətta bir sıra sahələrdə irəliləyiş əldə edilib.

Samir Şərifov çıxışında dövlət büdcəsindən pandemiya ilə mübarizəyə xərclənən vəsaitlərin həcmi və istiqamətləri barədə ətraflı məlumat verib. İclasda İqtisadiyyat nazirinin müavini Sevinc Həsənova hesabat ilində makroiqtisadi vəziyyət haqqında danışıb, dayanıqlığın qorunması üçün dövlətin yeritdiyi büdcə siyasəti, büdcə parametrlərində, büdcə-vergi siyasətində, büdcənin gəlir və xərclərində aparılan dürüstləşdirmələr, eyni zamanda, bu dövr ərzində davam edən böhranlı şəraitin mənfi təsirlərinin azaldılması istiqamətində həyata keçirilən dəstək proqramlarının, antiböhran tədbirlərinin oynadığı rol barədə məlumat verib.

Daha sonra Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov 2020-ci ilin dövlət büdcəsinin icrasına dair Hesablama Palatasının rəyini təqdim edib.

Komitənin iclasında İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Əli Məsimli, komitə üzvləri Ziyad Səmədzadə, Vahid Əhmədov, Vüqar Bayramov, Mahir Abbaszadə, Rüfət Quliyev və Aydın Hüseynov çıxış ediblər. Deputatlar dövlət büdcəsinin gəlir və xərcləri barədə fikirlərini bildiriblər, onun icrasını yüksək qiymətləndiriblər və Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə ediblər.

AMEA-nın 2020-ci ildəki elmi fəaliyyətinə həsr olunmuş yığıncaq keçirilib



Mayın 27-də Azərbaycan Milli Elmlər Akademiyasının 2020-ci ildəki elmi və elmi-təşkilati fəaliyyətinə həsr olunmuş ümumi yığıncağı keçirilmişdir.

Tədbirdə AMEA-nın həqiqi üzvləri fiziki, müxbir üzvləri və digər dəvət olunan şəxslər onlayn rejimdə iştirak ediblər.

Ümumi yığıncağın gündəliyində AMEA-nın 2020-ci ildəki elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabat dinlənilmişdir. AMEA-nın Nizamnaməsinə əlavə və dəyişikliklər edilməsi barədə məlumat verilmişdir. Çıxışlar və müzakirələrdən sonra AMEA-nın Nizamnamə Komissiyasının tərkibində dəyişikliklər edilib, AMEA Rəyasət Heyətinin rəhbər vəzifələrinə və üzvlüyünə seçkilər keçirilib, qərarlar qəbul edilib.

Qəzetimizin səhifələrində Azərbaycan elminin inkişafı ilə əlaqədar mütəmadi olaraq məlumatlar veriləcək.

Azərbaycan Avropa İttifaqı ölkələrindən məhsul idxalını azaldıb



Yanvar-aprel aylarında Azərbaycandan Avropa İttifaqına (Aİ) üzv ölkələrə 3 milyard 309,6 milyon ABŞ dolları dəyərində məhsul ixrac edilib.

Dövlət Gömrük Komitəsindən AZƏRTAC-a bildirilib ki, dörd ayda Aİ ölkələrindən Azərbaycana idxal edilən məhsulun dəyəri isə 683,5 milyon dollar olub. Bu göstərici 2020-ci ilin müvafiq dövrünə nisbətən 13,2 milyon dollar azdır.

Rəqəmsal mühitdə ofislərin virtuallaşması vektoru və rəqabət

Rəsul Balayev,
iqtisad üzrə elmlər doktoru,
Azərbaycan Dövlət İqtisad Universitetinin "Rəqəmsal texnologiyalar və tətbiqi informatika" kafedrasının professoru

Hazırda rəqəmsallaşma ictimai həyatın bütün sahələrində özünü kifayət qədər əyani surətdə göstərir. İqtisadi fəaliyyətin səmərəliliyində rəqəmsal mühitin təsiri artır. Həmin təsirin kəmiyyət və keyfiyyətcə öyrənilməsi məsələsi gündəlikdədir. Rəqəmsal mühitdə rəqabət mübarizəsinin özünəməxsus cəhətlərinin iqtisadi agentlərin fəaliyyətinin səmərəliliyinə təsiri tədqiq edilməlidir.

Rəqəmsal mühit dedikdə digər mühitləri riyazi qanunlar əsasında şərh etmək (modelləşdirmək) üçün istifadə edilən məntiqi obyektlərin formalaşdırdığı mühit nəzərdə tutulur. Texnologiyalar rəqəmsal mühitin nüvəsini təşkil edir. Bu mühitdə texnologiyalar sürətlə dəyişsə də, texnoloji və riyazi (hesabi) aspektlərin bir-birini tamamlamasının kəsilməz prosesi gedir. Bu prosesdə, demək olar ki, həmişə təcrübə önə keçir. İdealda fiziki aləm (onun dəyişmələrinin kəmiyyətcə ölçülməsi və onların səciyyələndirilməsi) haqqında bütün zəruri rəqəmlər real vaxt rejimində əlyetən olduqda, haqqında danışılan tamamlama prosesində müsbət dinamikadan danışmaq olar. İstehsalçı üçün həmin zəruri rəqəmlər (verilənlər) qismində istehlakçının davranışının kəmiyyət parametrləri çıxış edir.

İnformasiya cəmiyyətinin və rəqəmsal mühitin tələbi informasiyanın açıqlığı və əlyetənliyidir. Bu baxımdan verilənlərin açıq olması onların faydalılığının şərti və nəticəsi kimi nəzərə gəlir. Əlbəttə, reallıq prinsiplərdən daha zəngindir və müxtəlifliyin zəruriliyi mühitində, artıq qeyd olunduğu kimi, informasiya təhlükəsizliyi, müəllif hüquqlarının qorunması və bu kimi bir sıra digər tələblər məhdudiyyət şərtləri olaraq qalır. Rəqəmsal iqtisadi mühitdə xüsusi informasiya modellərinin inkişaf perspektivləri barədə birmənalı nikbin olmaq reallığa etinasızlıq olardı. Unutmaq olmaz ki, məxsusi informasiya modelinə malik hər hansı iqtisadi agent tərəfdaşlarının fəaliyyət mühitində üstünlük təşkil edən informasiya modelinə uyğunlaşmaq məcburiyyətindədir. Odur ki, hər halda verilənlərin açıqlığı onların faydalılığına dəlalət edir. Haqqında danışılan faydanın əldə edilməsi fəaliyyət inteqrasiyasını təşviq edən rəqəmsal mühitdə fəaliyyət standartlarının açıqlığının təmin edilməsini nəzərdə tutur. Unutmaq olmaz ki, rəqəmsal iqtisadiyyatın təşəkkülünün hazırki dövründə həyata keçirilən tənzimləmə tədbirləri, işlənib hazırlanan və qəbul edilən standartlar onun inkişaf perspektivlərində həlledici rol oynayacaqdır.

Rəqəmsal mühitdə fəaliyyət məkanı və iş yeri

Rəqəmsal mühitdə fəaliyyət məkanı və iş yeri anlayışları arasında fərqin azalacağı gözlənilir. Bu mühitdə fəaliyyət məkanının iş yerini əvəzləməsi, ofis anlayışının virtuallaşması üçün bütün zəruri şərtlər mövcuddur və müvafiq potensial göz qabağında inkişaf edir. İş yoldaşları arasında əlaqələrin məkandan asılılığı azalır. Təcrübədən göründüyü kimi, azalmaya mane olan əsas amillərdən biri ənənəvi müəssisə modelidir. Həmin modelin dəyişməsi isə zaman məsələsidir. Məsələ ondadır ki, iş yerindən daha yaxşı fəaliyyət məkanında çalışmaqla işçi müəssisəyə verdiyi faydanı və onun özünün gəlirlərini artıra bilirsə, ofisin virtuallaşması sürətlənə bilər. İnsanların işə gedib və qayıtmaq vaxtına qənaət etməsi də az əhəmiyyətli amil deyildir. Məsələ ondadır ki, məhz "yerdəyişmələrin minimumlaşdırılması" effekti sayəsində aqlomerasiya effektini az-çox dərəcədə reallaşdırmaq mümkün olur.

Ofisin virtuallaşmasını məhdudlaşdıran səbəblər də az deyildir. Hər şeydən əvvəl, onu qeyd edək ki, bu virtuallaşma prosesi İT menecerlərinin, informasiya təhlükəsizliyi üzrə mütəxəssislərin və bir sıra digər ofis işçilərinin işini çətinləşə bilər. Digər və zənnimizcə, heç də az əhəmiyyətli olmayan səbəb kimi rəqəmsal mühitdə biliklərin texnolojiləşməsində baş verən aşağıdakı meyillər diqqətəlayiqdir: təcrübənin yenilənməsinin yüksək tezliyi onun yayılmasında iştirak edən mütəxəssislər arasında əyani nümunənin rolunu artırmış, ümumiləşdirmənin isə rolunu azaltmışdır. Daha dəqiq desək, öz təcrübi biliklərini şəxsi təmasda daha yaxşı ötürə bilən insanların sayı artmaqdadır. Odur ki, həmin insanların məsafədən bir-birinə yardımçı olmasının çətinləşməsi baş verir. Bu gözləntilərin reallaşma ehtimalı transaksiya xərclərinin dinamikasında və ofislərin virtuallaşması vektorunun müəyyən edilməsində həlledici amil ola bilər.

Rəqəmsallaşma iqtisadi həyatda dinamizmi kəskin surətdə artırır. Kəskinləşən rəqabət mübarizəsi şəraitində formalaşmış institusional mühit artan dinamizmin tələblərinə uyğunlaşmaq məcburiyyətindədir. Bununla belə, ənənəvi rakursda müəssisə modelinin ətalətliliyi rəqəmsal mühitin yaratdığı genişlənən müxtəlifliyə adekvat reaksiya verə bilmir. Bu xüsusilə rəqabət mübarizəsində özünü daha aşkar şəkildə göstərir. Belə ki, rəqəmsal mühitdə, obrazlı desək, bütün iqtisadi agentlər bir-birinə rəqibdir. Başqa sözlə, belə bir fikirlə razılaşmaq lazım gəlir ki, rəqəmsal iqtisadiyyatda rəqabət mübarizəsini rəqiblərdən deyil, hər yerdən gözləmək lazımdır. İnformasiya rəqəmsal olduqda və şəbəkədə birləşdikdə bütün sədlər dağılır və heç bir biznes təhlükəsiz olmur.

İnformasiya bazarında rəqabətin məkan aspekti

Rəqəmsal iqtisadi mühit informasiya bazarında rəqabətin məkan aspektini aktuallaşdırır. İnformasiya bazarında rəqabətin başlıca məqsədi informasiya bərabərsizliyi amilindən istifadə edərək, informasiya rentasını əldə etməkdir. Rəqəmsal iqtisadi mühitdə iqtisadi agentin informasiya məkanında əldə etdiyi üstünlük ona informasiya mübadiləsində vaxt məsrəflərini azaltmaqla mənfəəti artırmağa imkan verir. İnformasiya bazarında pay əldə etmək üçün aparılan rəqabət mübarizəsi məkan xarakterlidir və informasiya məkanı anlayışına münasibəti dəqiqləşdirməyi tələb edir. Belə bir fikirlə razılaşmamaq çətindir ki, rəqəmsal mühitdə rəqabət mübarizəsi sərhədləri nəzərə almayan xüsusi informasiya məkanı yaratmaq uğrunda aparılır. Belə fikirlə razılaşmaq olar ki, informasiya məkanı uğrunda rəqabət kateqoriyası, məkan nəzəriyyəsi çərçivəsində informasiya bazarında pay uğrunda mübarizə kimi nəzərdən keçirilməlidir. Beləliklə, informasiya bazarında məkan rəqabəti sərhədləri nəzərə almayan xüsusi informasiya məkanı yaratmaq uğrunda aparılan mübarizədir.

İnformasiya bazarında rəqabət heç də təkmil deyildir. İnkişaf etmiş ölkələr tərəfindən bu bazarda haqsız rəqabətə cəhdlər müşahidə olunur. İş o həddə çatmışdır ki, artıq qlobal informasiya rəqabəti proseslərinin nəticələrinə görə ölkələri informasiya mərkəzi və informasiya periferiyası əlamətləri üzrə fərqləndirirlər. Bu təsnifatda rəqəmsal mühitin indikatorları ilə yanaşı, habelə ölkələrarası informasiya bərabərsizliyinin xarakteristikaları da nəzərə alınır. Həmin xarakteristikalara, ilk növbədə ölkədə - informasiya-kommunikasiya sahələri məhsullarından istifadə səviyyəsi, informasiya infrastrukturunun inkişafı və idxaldan asılılıq səviyyəsi, informasiya bazalarının (provayder şirkətlərinin) cəmləşməsi səviyyəsi, dövlət elektron idarəçiliyi səviyyəsi, elektron iqtisadi tənzimləmənin səviyyəsi aid edilə bilər.

İnformasiya cəmiyyətinin genişlənməsi iqtisadiyyatda transaksiya xərclərinin ümumi səviyyəsinə birmənalı təsir etmir. Belə ziddiyyətli vəziyyəti şərtləndirən səbəblərin mənbələrdə rast gəldiyimiz təsnifatı maraq doğurur: *rəqəmsal iqtisadi informasiyanın həcminin və iqtisadi transaksiyaların tutumunun sürətlə artması; rəqəmsal mühitin strukturlaşdırılmasının aşağı səviyyəsi, eyni zamanda, təhlükəsizliyə və məxfiliyə tələblərin artması; rəqəmsal informasiya axınlarının və iqtisadi subyektlərin məlumatlandırılmasının assimmetriyası.*

İqtisadi inkişaf, məlum olduğu kimi, rəqabət mübarizəsi ilə müşayiət olunur. Yeni əsrdə rəqabət üstünlükləri, təcrübənin ilkin təhlilindən göründüyü kimi, əsasən innovasiyalarla bağlıdır. Rəqabətin nəticəsi, milli miqyasda iqtisadi artımda və ölkə əhalisinin həyat səviyyəsinin yüksəlməsində ifadə olunmalıdır. Milli iqtisadiyyatın rəqabət qabiliyyətində rəqəmsal fəaliyyətin səmərəliliyi amilinin rolu artır. Yeri gəlmişkən, belə bir məsələni xüsusi qeyd etməyə ehtiyac vardır. Ölkə rəqəmsal texnologiyaların inkişafında, onun texniki-texnoloji təminatının yaradılmasında idxalı əvəzləmə imkanına malikdirsə, bu, ona rəqabət mübarizəsində ciddi üstünlüklər verir.

Rəqəmsal iqtisadiyyat dördüncü sənaye inqilabı dalğasında formalaşır və inkişaf edir. Şəbəkə mühitində başdan-başa innovasiyalı yanaşma cəhdləri, müşahidələr göstərir ki, o, xərcləri azaltmağa yönəlmişdir. Rəqəmsal bazarın yeni iştirakçıları ənənəvi iştirakçılardan öz çevikliyi ilə fərqlənir. Bu isə həmin bazarın iştirakçılarını daim sayıq olmağa məcbur edir. Dördüncü sənaye inqilabının reallıqları baxımından bazar iştirakçılarının rəqabət qabiliyyətinə və rəqabət mübarizəsi mühitinə münasibətdə Klaus Şvabın aşağıdakı mövqeni mühüm və diqqətəlayiq hesab edirik:

"Rəqabət qabiliyyətini təmin etmək üçün şirkətlər və ölkələr bütün formalarda innovasiyalar tətbiq etməlidirlər. Bu, ilk növbədə xərclərin azaldılmasına yönəlmiş strategiyaların məhsul və xidmətlər təklif etmənin daha innovativ üsullara əsaslanan strategiyalardan daha az səmərəli olacağını göstərir. Gördüyünüz kimi, bu gün tanınan şirkətlər, digər sənaye və ölkələrin yeni yaranan və hər şeyi dəyişən, habelə yenilikçi şirkətlər tərəfindən həddindən artıq böyük təzyiq altındadır. Bu hal, öz innovativ ekosistemlərini qurmaq zərurətini qəbul etməyən ölkələrə də aiddir".

Rəqəmsal bazarlarda rəqabət və blokçeyn texnologiyası

Rəqəmsal bazarlarda rəqabətin xarakteri həlledici dərəcədə bazarın informasiya texnologiyaları seqmentindəki vəziyyətindən və burada baş verən rəqabətin xüsusiyyətlərindən asılıdır. İlkin yanaşmada informasiya texnologiyaları bazarında rəqabətin xüsusiyyətlərinə aşağıdakılar aid edilir:

- *beynəlxalq rəqabət şərtləri və qaydalarının güclü təsiri;*
- *qeyri-mükəmməl və haqsız rəqabət hallarına tez-tez rast gəlinməsi;*
- *qiymətlərin volotilliyi, qiymətin əmələgəlməsinin əsasən istehsal sferasında deyil, satış sferasında baş verməsi;*
- *münasib dövr başa çatdıqdan sonra texnologiyanın qiyməti lisenziyalı nüsxə qiymətindən maddi daşıyıcı qiymətinə qədər enə bilir;*
- *qeyri-qiymət rəqabətinin geniş istifadə olunması və i.a.*

İnformasiyaya sahib olmaqla rəqəmsal bazarda inhisarçı olmaq cəhdinin qarşısını almaq üçün bu günə, hələ ki, mükəmməl sayıla bilən texnoloji həllər təklif edilir. Nikbinliyi ilə fərqlənən belə bir fikir vardır ki, "rəqəmsal qiymət platformalarının, elektron mağazaların, blokçeyn sistemlərinin olduğu şəraitində informasiya bazarını heç kəs inhisarlaşdıra bilməz". Bu nikbinliyi bölüşmək isə, zənnimizcə, hələ çox tezdir. Məsələ ondadır ki, blokçeyn texnologiyasının problemləri, artıq özünü göstərir və onlara bu günə olan vəziyyətə aşağıdakılar aid edilir:

- *blokçeyn kriptoqrafiya üsullarına əsaslandığı üçün mürəkkəb hesablamaların aparılmasına olduqca böyük miqdarda elektrik enerjisi sərf edilir;*
- *texnologiya əsasında aparılan əməliyyatların sürəti çox aşağıdır, onlar tənzimlənə bilmir (dələduzluq halları ilə mövcud qanunvericilik çərçivəsində mübarizə aparmaq çətindir), təhlükəsizliyə zəmanət yoxdur;*
- *maliyyə-bank sistemi blokçeyn texnologiyasının tətbiqi və inkişafında maraqlı deyildir.*

İnformasiya rəqabəti şəraitində istənilən informasiyaya iqtisadi aspektdən yanaşmaq lazımdır. Belə ki, informasiya, demək olar ki, bütün hallarda:

- *ənənəvi bazarlarda mövqeni saxlamaq və möhkəmləndirmək məqsədi ilə istifadə olunur;*
- *ölkənin (transmilli şirkətin) texnoloji imkanları artdıqca, digərlərinə nisbətən tam informasiya şəraitində fəaliyyət üstünlüyü əldə edir ki, bu da informasiya qeyri-bərabərliyini artırır;*
- *hər yerə nüfuz edən texnologiyalar vasitəsi ilə istənilən iqtisadi münasibətin gec-tez şəffaflaşması baş verir.*

Rəqəmsal bazarların inkişafı ideyaların və faydalı sayılan təcrübələrin mübadiləsi prosesini sürətləndirir. Bu isə yeni biznes modellərinin yaradılması, yayılması və istifadəsi proseslərini də sürətləndirməkdə, rəqəmsal bazarlarda rəqabətə yeni yanaşmaları formalaşdırmaqdadır. Rəqəmsal bazarlarda rəqabətin özünəməxsus cəhətlərindən biri biznes modellərin öz aralarında və onlarla internet platformalar arasında rəqabət mübarizəsində üzə çıxır. İlkin təcrübənin təhlili böyük ehtimalla belə deməyə əsas verir ki, biznes modellər və internet platformalar arasında rəqabət gec-tez sonuncunun qələbəsi ilə başa çatır. Odur ki, zənnimizcə, platformada üstünlük qazanmağa yönəlmiş biznes model daha perspektivli hesab edilə bilər. Rəqəmsal bazarlarda rəqabətin digər özünəməxsusluğu bazarda əhəmiyyətli (və ya ümumiyyətlə) payı olmayan şirkətlərin üstünlük əldə edə bilməsindədir. Onların kreativliyi əsasən yeni çağırışlara əlüstü reaksiya verməkdə ifadə olunur.

Yeni şirkətlər rəqəmsal bazarın tələblərinə daha çevik reaksiya verə bilirlər. Onlar bütün resursları yalnız günün tələblərinə uyğun strukturun yaradılmasına səfərbər edə bilirlər. Bu baxımdan iri şirkətlərin vəziyyəti fərqlidir. Uzun illər fəaliyyət göstərən bu şirkətlərin maddi-texniki və kadr potensialını çevik şəkildə yeni çağırışlara tabe etmək çətindir. Əlbəttə, iri şirkətlərin geniş imkanları və onların yaratdığı kreativliyin dəstəklənməsi amili nəzərdən qaçmamalıdır. Məhz radikal və kreativ addımlar sayəsində informasiya-kommunikasiya texnologiyaları sahəsində fəaliyyət göstərən nəhəng şirkətlər innovasiyalı modernləşdirmə xəttini yeridir, itkilərini azaltmaqda və bazarın yeni seqmentlərini tutmaqda bu və ya digər dərəcədə uğur qazanırlar. Rəqəmsal bazarda əldə edilən qazanc əksər hallarda ikitərəfli olur. Bu, təkcə əqli fayda ilə məhdudlaşmaya bilər. Deyək ki, tərəf-müqabilə fayda verməklə, az vaxtda real olaraq çox sayda müştəri tapmaq olur.

Sonda bəzi məqamları xülasə edək. Ətraf mühiti riyazi əsaslarla modelləşdirən məntiqi obyektlərin formalaşdırdığı rəqəmsal mühitin nüvəsində texnologiyalar dursa da, texnoloji və riyazi aspektlərin bir-birini tamamlamasının kəsilməz prosesi diqqət mərkəzində olmalıdır. Rəqəmsal mühitdə məxsusi informasiya modelləri az perspektivlidir və burada verilənlərin açıqlığı onların faydalılığına dəlalət edir. Rəqəmsal mühitdə bütün iqtisadi subyektlər bir-birinə rəqibdir. Bu mühitdə rəqabət mübarizəsi sərhədləri nəzərə almayan xüsusi informasiya məkanı yaratmaq uğrunda aparılır. Rəqəmsal mühitdə istənilən informasiyaya iqtisadi aspektdən yanaşmaq zərurəti yaranır. İnformasiyaya sahib olmaqla rəqəmsal bazarda inhisarçılığın qarşısını almaq üçün təklif edilən blokçeyn və digər texnologiyaların hazırki vəziyyətdə bəyan edilmiş missiyasının yerinə yetirilməsində ciddi problemlər mövcuddur.



Azərbaycanda barmaq izi əsasında kiçik kreditlərin verilməsinə başlanılır



Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi və "AzPul" MMC bank olmayan kredit təşkilatı (BOKT) arasında biometrik texnologiya əsasında şəxsin kimliyini müəyyən edərək, həmin şəxsin sorğusu əsasında e-imza sertifikatlarının verilməsi həlli ilə bağlı müqavilə imzalanıb.

Bu barədə nazirlik məlumat yayıb.

Müqaviləyə əsasən, "AzPul" kiçik məbləğli kreditlər verilərkən vətəndaşın şəxsiyyəti real vaxt rejimində biometrik eyniləşdirmə vasitəsilə müəyyənləşdiriləcək və ona kredit müqaviləsini imzalamaq üçün birdəfəlik elektron imza sertifikatı təqdim olunacaq.

Qeyd olunan həll üztanıma və açıq açar texnologiyasını özündə birləşdirir. Bu texnologiyadan istifadə edərək, elektron imza tələb olunan istənilən əməliyyatı məsafədən, onlayn formada aparmaq mümkündür. Biometrik texnologiyaya əsaslanan bu həll vasitəsilə aparılan bütün əməliyyatlar avtomatlaşdırılmış şəkildə həyata keçirilir. Bu da istifadəçilərə operativlik qazandırır. Həllin təhlükəsiz, avtomatlaşdırılmış və operativ olması istifadəçilərlə yanaşı, xidmət təklif edən qurumlar üçün də böyük üstünlüklər yaradır. Belə ki, bu həll tərəfdaşlara öz xidmətlərinin inkişaf etdirilməsi üçün aşağıdakı imkanları verir:

• Real vaxt rejimində müştərinin elektron imza sertifikatı əldə etməsi;
• Məkandan və zamandan asılı olmadan xidmətdən istifadə;
• Saxtakarlıq hallarının qarşısının alınması (şəxsin xəbəri və iştirakı olmadan adına əməliyyat aparılması mümkünsüzdür);
• Sistemin istənilən cihaza inteqrasiyası;
• Real vaxt rejimində məlumatların əldə edilməsi.

Təklif edilən həll istər dövlət, istərsə də özəl sektorun təmsilçiləri tərəfindən istifadə oluna bilər. Ölkəmizdə rəqəmsal transformasiyaya keçid bu texnologiyadan istifadəni daha aktual edir.

Türkiyədən BTQ dəmir yolu ilə Çinə daha iki ixrac yük qatarı yola düşüb



Bazar ertəsi Türkiyənin şimal-qərbindəki Kocaeli əyalətindən Çinə altıncı və yeddinci ixrac qatarı yola düşüb. Bu barədə Anadolu agentliyi Türkiyə Cümhuriyyəti Dövlət Dəmir Yolları İdarəsinə istinadən məlumat verib.

"2,250 min ton melamin örtülü MDF 41 konteyner ilə qatarlar iki həftə ərzində Gürcüstan, Azərbaycan, Xəzər dənizi və Qazaxıstandan keçməklə Çinin Sian şəhərinə çatmaqla 8693 km məsafə qət edəcək", - nəşr qeyd edir.

"Pasifik Eurasia"nın logistika şöbəsinin rəhbəri Alper Taylan məlumat verib ki, qatarlar təyinat məntəqəsinə təxminən 12 günə çatacaq.

"Bakı-Tbilisi-Qars dəmir yolu Asiya ilə Avropa arasında yük nəqli üçün ən səmərəli marşruta çevrilib. Bizim hədəfimiz – Türkiyə-Çin-Türkiyə marşrutu ilə dəmir yolu reyslərinin sayını illik 1500-ə çatdırmaqdır", - Taylan bildirib.

Bakı-Tbilisi-Qars dəmir yolu 2017-ci il oktyabrın 30-da istismara verilib. Layihə 68 kilometri Türkiyə, 30 kilometri isə Gürcüstan ərazisindən keçən 98 kilometr uzunluğunda Qars-Axalkalaki dəmir yolunun tikintisi, həmçinin Gürcüstanda 183 kilometrlik Axalkalaki-Tbilisi hissəsinin yenidən qurulmasından ibarət olub. Gürcüstan hissəsinin tikintisi bu ölkəyə ümumilikdə $775 mln. məbləğində iki güzəştli kredit ayırmış Azərbaycan tərəfindən maliyyələşdirilib.

BTQ-nin ümumi uzunluğu 826 km-dir.

Hüquqi şəxlərin əmanətləri üzrə dollarlaşma 56%-dək azalıb

2021-ci ilin birinci rübünün sonuna Azərbaycanda hüquqi şəxslərin xarici valyutada yerləşdirilən əmanətləri hüquqi şəxslərin depozitlərinin ümumi portfelinin 56%-ni təşkil edib. Bu barədə "İnterfaks-Azərbaycan"a Mərkəzi Bankdan məlumat verilib.

"2021-ci il martın sonuna hüquqi şəxslərin depozit portefli üzrə dollarlaşma 2020-ci ilin sonuna 58,1%-ə qarşı 56% təşkil edib", - AMB-dən qeyd ediblər. Beləliklə, 2021-ci ilin əvvəlindən Azərbaycanda hüquqi şəxslərin əmanətləri üzrə dollarlaşma 2,1 faiz bəndi azalıb.

AMB-dən qeyd olunduğu kimi, hesabat dövründə fiziki şəxslərin əmanətləri üzrə dollarlaşma 50,7%-dən 50,3%-dək azalıb.

2021-ci il martın 31-nə Azərbaycanda banklarda əmanətlərin və depozitlərin həcmi 23 milyard 825,9 milyon manat təşkil edib, bu da 2020-ci ilin sonuna olan göstəricidən 0,8% çoxdur. Həmçinin, fiziki şəxslərin əmanətləri 8 milyard 147,5 milyon manat həcmində qiymətləndirilir.



«Azərbaycanda fəaliyyət göstərən şirkətlərin 60%-i rəqəmsal transformasiyaya sərmayə qoymağı planlaşdırır»



Bu sözləri "PwC Azərbaycan" şirkətinin ölkə üzrə idarəedici partnyoru Mövlan Paşayev deyib.

O qeyd edib ki, "PwC Azərbaycan" şirkəti 4-cü illik CEO sorğusu keçirib.

"Sorğunun nəticələrinə görə, CEO-ların 60%-i rəqəmsal transformasiyaya sərmayə qoymağı planlaşdırır, onların 67%-i isə hesab edir ki, ixtisaslı, savadlı və adaptasiya olunan işçi qüvvəsi biznesin əsas prioritetidir", - deyə Paşayev vurğulayıb.

Sorğuda ölkədə fəaliyyət göstərən müxtəlif şirkətlərin 121 icraçı direktoru iştirak edib.

M.Paşayevin fikrincə, sorğunun nəticələri göstərir ki, Azərbaycandakı şirkətlərin rəhbərləri iqtisadiyyatları süni intellektə, robototexnikaya və digər yeni texnologiyalara əsaslanan sürətlə inkişaf edən ölkələrin gələcək uğurları üçün rəqəmsallaşdırma və ixtisasartırma işlərinin həlledici əhəmiyyət daşıması mövqeyinin tərəfdarıdır.

Azərbaycan I rübdə şokolad ixracını 15%, idxalını 19% artırıb

Azərbaycan 2021-ci ilin I rübündə 5,49 min ton şokolad idxal edib, bu da 2020-ci ilin nanaloji dövrünün göstəricisindən 18,6% çoxdur. Bu barədə "İnterfaks-Azərbaycan" agentliyinə hökumətdən məlumat verilib.

Ölkəyə idxal olunan şokoladın dəyəri $14 milyon 674,91 min həcmində qiymətləndirilir (artım 22,9%).

Azərbaycana şokoladın əsas tədarükçüsü Rusiya olub. 2021-ci ilin üç ayı ərzində RF-dən $8 milyon 987,75 min dəyərində (artım 13,8%) 3,316 min ton (artım 18,1%) şokolad idxal edilib. Hesabat dövründə Azərbaycana şokolad idxalının 60,4%-i RF-in payına düşüb.

Azərbaycana şokoladın digər iri tədarükçüsü isə Ukrayna olub. Birinci rübdə bu ölkədən $1 milyon 239,48 min dəyərində 589,13 ton məhsul idxal edilib.

Eyni zamanda, Azərbaycan yanvar-mart aylarında $1 milyon 11,51 min dəyərində (azalma 10,8%) 546,48 ton (artım 14,8%) şokolad ixrac edib. Həmçinin, Rusiyaya $375,68 min (azalma 66,9%) ixracın həcmi 192,18 ton (azalma 59%) olub.



Azərbaycan 2020-ci ildə $72 milyon 875,54 min dəyərində 26,023 min ton şokolad idxal edib. Azərbaycana ən iri şokolad tədarükçüsü Rusiya olub. Xüsusilə, ötən il ərzində RF-dən $30 milyon 913,48 min məbləğində 14,217 min ton şokolad idxal olunub. Ümumilikdə, 2020-ci il ərzində Azərbaycana şokolad idxalının 54,6%-i RF-nin payına düşüb.

Eyni zamanda, 2020-ci ildə Azərbaycan $3 milyon 900,92 min dəyərində 1,835 min ton şokolad ixrac edib.


I rübdə 42 min tondan çox xurma ixrac edib

2021-ci ilin I rübündə Azərbaycan 42,342 min ton təzə xurma ixrac edib ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,4 dəfə çoxdur. Bu barədə "İnterfaks-Azərbaycan" agentliyinə hökumətdən məlumat verilib.

İxrac edilmiş xurmanın dəyəri $31 milyon 865,68 min (artım 2,3 dəfə) təşkil edir.

Xurmanın əsas ixrac bazarı Rusiyadır: cari ilin yanvar-mart aylarında RF-yə $30 milyon 655,14 min dəyərində (artım 2,3 dəfə) 37,677 min ton təzə xurma (artım 2,3 dəfə) ixrac edilib. Bu dövrdə təzə xurma ixracının 89%-i RF-in payına düşüb.

2020-ci ildə Azərbaycan $91 milyon 586,68 min məbləğində 125,771 min ton təzə xurma ixrac edib. Bu məhsulun əsas ixrac həcmi Rusiyanın payına düşüb. Ötən il bu ölkəyə $85 milyon 299,59 min məbləğində 102,669 min ton xurma ixrac edilib.



Yanvar-aprel aylarında Azərbaycan elektrik enerjisi ixracını 11%, idxalı 6% artırıb

2021-ci ilin yanvar-aprel aylarında Azərbaycandan elektrik enerjisinin ixracı 554,5 mln. kVt·st təşkil edib, bu da ötən ilin analoji dövrünün göstəricisindən 10,7% çoxdur. Bu barədə "İnterfaks-Azərbaycan"a Energetika Nazirliyindən məlumat verilib.

Həmçinin, İrana 10,8 mln. kVt·st, Türkiyəyə 12,7 mln. kVt·st, Rusiyaya 31,2 mln. kVt·st, Gürcüstana isə 499,8 mln. kVt·st elektrik enerjisi ixrac edilib.

Nazirliyin məlumatına görə, yanvar-aprel aylarında Azərbaycana elektrik enerjisinin idxalı 47,2 mln. kVt·st olub.

İdxalın strukturunda 10,8 mln. kVt·st İranın, 32 mln. kVt·st Rusiyanın, 4,4 mln. kVt·st Gürcüstanın payına düşüb.





Sərnişin və yük daşımaları sahəsində vergi öhdəlikləri nədən ibarətdir?

Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalarını (o cümlədən, taksi ilə) həyata keçirən şəxs sadələşdirilmiş verginin ödəyicisi kimi hər bir avtomobil nəqliyyatı vasitəsi üçün Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən, Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma həyata keçirildikdə isə Bakı Nəqliyyat Agentliyindən təqvim ayının sonunadək öz istəklərinə uyğun olaraq növbəti ay, rüb, yarımil və ya il üçün ciddi hesabat blankı olan "Fərqlənmə nişanı" almalıdırlar.



"Fərqlənmə nişanı" almaq üçün vergiödəyicisinin ərizəsinə həmin fəaliyyət üçün sadələşdirilmiş verginin və məcburi dövlət sosial sığorta haqqının ödənilməsini təsdiq edən bank ödəniş sənədi əlavə edilməlidir. Bank ödəniş sənədində avtomobil nəqliyyatı vasitəsinin dövlət qeydiyyat nişanının seriya və nömrəsi aydın göstərilməlidir.

Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən hüquqi şəxslərə və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə hesablanmış vergini və məcburi dövlət sosial sığorta haqqını tam məbləğdə dövlət büdcəsinə ödədikdən sonra "Fərqlənmə nişanı" verilir.

Mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitəsi ilə respublika ərazisində taksi ilə sərnişin daşımaları həyata keçirən şəxs olan sadələşdirilmiş vergiödəyicisinin vergisi 1 nəqliyyat vasitəsi üçün Bakı şəhərində (kənd və qəsəbələr daxil olmaqla) və Bakı şəhəri ilə ölkənin digər yaşayış məntəqələri arasında 18 manat, Abşeron rayonu, Sumqayıt, Gəncə şəhərlərində və həmin rayon və şəhərlərlə digər yaşayış məntəqələri arasında (Bakı və onun kəndləri istisna olmaqla) 13,5 manat, digər şəhər və rayonlarda və həmin şəhər və rayonlarla digər yaşayış məntəqələri arasında isə 9 manat təşkil edir.

"Sosial sığorta haqqında" Qanuna əsasən avtomobil nəqliyyatı vasitələri ilə ölkədaxili (şəhərlərarası və rayonlararası, şəhərdaxili və rayondaxili) sərnişin daşımaları (o cümlədən, taksi ilə) fəaliyyəti ilə məşğul olan şəxslərin ödəməli olduğu sosial sığorta haqqının məbləği minimum aylıq əməkhaqqının 6 faizi həcmində müəyyən edilib.

Bakı şəhərində taksi fəaliyyətini həyata keçirən şəxs minimum aylıq əməkhaqqının 6 faizinə 2 əmsal tətbiq etməklə hər ay üçün 30 manat sosial sığorta haqqı ödəməlidir.



AzVirt

«Aqrarkredit» QSC
Bank olmayan Kredit Təşkilatı

Bütün Azərbaycan xalqını
28 May - Respublika günü münasibəti
ilə təbrik edir, tariximizin bu şərəfli
səhifəsinin gələcək nəsillərimizə də
örnək olmasını diləyir!



28 May - Respublika Günü
münasibətilə Azərbaycan
xalqını təbrik edirik!



İşğaldan azad olunmuş ərazilərin bərpa konsepsiyasının əsas prinsipləri

30 il yağı düşmənin əsarəti altında olan torpaqlarımıza dəymiş yüz milyardlarla manat maddi, mənəvi, ekoloji və sair istiqamətlərdəki zərərlər bir millət olaraq bizlərə torpaq sevgisinin və torpaqlara qayıdışın reallaşması fonunda bəlkə də miqyası qədər görünmür. Görünən odur ki, Azərbaycan xalqı başda cənab prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanıolmaqla işğaldan azad olunmuş ərazilərdə sosial-iqtisadi inkişaf məsələlərini düşünərək, həyatın davam etməsini və bütün dünyaya Azərbaycanın qalib xalq olaraq qətiyyətini nümayiş etdirir.

Hal-hazırda bizim ümummilli amalımız ölkəmizin son illər əldə etdiyi sosial-iqtisadi inkişaf sahəsindəki uğurlarını daha səmərəli şəkildə işğaldan azad olunmuş əzəli tarixi torpaqlarımıza transformasiya edərək, nəticə etibarilə bölgənin canlandırılmasına nail olmaqdır. Məşhur psixoloq, alim Abraham Maslounun ehtiyaclar iyerarxiyasına istinadənqeyd etmək istərdik ki, təhlükəsizlik faktoru muharibə sonrası bölgədəiqtisadi inkişaf üçün ilkin amildir. Bu baxımdan da terrordan əziyyət çəkmiş ölkələrin təcrübəsi əsasında təhlükəsizlik tədbirləri görülməsi üçün ən qabaqcıl avadanlıq, texnologiya tətbiq etməklə azad olunmuş torpaqlarımızın infrastrukturla təchiz edilməsi məsələləri önə çıxır. Bu mənada müəyyən araşdırmalar, siyasi və iqtisadi yanaşmalar və Azərbaycanın bölgədəki nüfuzu nəzərə alınaraq, reallıqların gələcəklə bağlı müsbət təminat verdiyi bir daha təsdiqlənir.

Əzəli tarixi torpaqlarımızda sosial-iqtisadi proqramların həyata keçirilməsi üçün ilk növbədə təhlükəsizlik məsələləri həll edilməli və müvafiq infrastruktur layihələri icra edilməlidir ki, bunlarla bağlı da ölkə başçısı konseptual fikirlərini bildirmişdir. Bu fikirləri əsas götürərək ərazidə aşağıdakı tədbirlərin daha effektiv həyata keçirilməsi məqsədəuyğun olardı:

- işğaldan azad olunmuşəzəli tarixi torpaqlarımızda sosial-iqtisadi məsələlərin daha effektiv həyata keçirilməsi üçün ilk növbədə bölgənin insan resursları potensialını gücləndirməyi və bununla da İT, eyni zamanda,mühəndis-konstruktor sahələri üzrə mütəxəssislərin(nümunə olaraq ABŞ-ın məşhur "Silikon vadisi"və Yaponiyanın "Eko və Təhlükəsizlik Texnologiyaları Mərkəzi"nin modellərini göstərmək olar) ən müasir işçi proqramlar əsasında mövcud imkanları reallıqlara çevirə biləcək mexanizmləri tətbiq etmələrini məqsədəuyğun hesab edirik;

- işğaldan azad olunmuş ərazilərin bərpasının daha səmərəli və daha tez həyata keçirilməsi üçün "İşğaldan Azad Olunmuş Ərazilərin Bərpası Mərkəzi"nin yaradılmasınıməqsədəmüvafiq hesab edirik;

- məhsuldar qüvvələrin daha dinamik inkişaf prosesinin elementlərindən biri kimi miqrasiyanın azad olunmuş ərazilərin sosial-iqtisadi inkişafı səbəbindən olmasını məqsədəuyğun hesab edirik;



- əsas prioritet kimi əhalinin, xüsusilə də gənc ailələrin mənzil təminatının həyata keçirilməsi və bu sahənin növbəti illərdə də xüsusi olaraq nəzərdə saxlanılmasını vacib hesab edirik;

- işğaldan azad olunmuş ərazilərdə peşəkar, mədəni və maddi cəhətdən əhalinin həyat şəraitinin dəyişməsi miqrasiyanın səviyyəsinin artımı vasitəsi sayılır ki, bu istiqamətdə də lazımi tədbirlərin icra edilməsini zəruri hesab edirik;

- miqrasiya siyasətinin köməyilə azad olunmuş ərazilərin əhalisinin sayını yalnız birbaşa, yəni əmək resurslarının zəruri sayının regiona istiqamətlənməsi yolu ilə deyil, həm də dolayı yolla, yəni regiona müəyyən peşəkar-ixtisaslı tərkibə, cinsə və yaşa malik işçilərin cəlb olunması və əməkqabiliyyətli əhalinin təkrar istehsalı üçün əlverişli şəraitin yaradılması hesabına da tənzimləmək olar.

Sosial müdafiənin və sosial inkişafın olması üçün ilk əvvəl iqtisadi inkişafın keyfiyyət göstəricilərinə diqqət yetirilməsi vacibdir. Hazırda dövlətimizin əldə etdiyi təcrübələrə əsaslanaraq özünüməşğulluq proqramlarının və sosial rifah layihələrinin ərazilərdə tətbiq edilməsini məqsədəuyğun hesab edirik. Mühüm yanaşmalardan biri və bəlkə də əsası bölgədə elmin inkişafıdır. Bu, birinci hədəf olmalıdır.Bölgədə rəqəmsal elmi-tədqiqat və təhsil universitetinin və ya ən müasir hərbi-texnologiya institutunun yaradılmasını təklif edirik. Bu baxımdan da Qarabağ Dövlət Rəqəmsal Universitetinin yaradılması bölgənin təhsil və elmi potensialının formalaşmasına xidmət edə bilər. Ərazilərinbərpası və inkişafı ilə bağlı iqtisadi bərpa konsepsiyasının əsas prinsipləri nəzərə alınmalıdır. Bu baxımdan da Şuşa şəhəri milli dəyərimizin emosional rəmzi olaraq elm, mədəniyyət və incəsənət tədbirləri üçün tam uyğundur. Musiqi, xüsusilə də muğam Qarabağ üçün ən prioritet sahələrdən biridir. Xüsusilə, hazırda musiqi həm də təbliğat, incəsənət, milli gen və tarixdir. Eyni zamanda, bu, bir məşğuliyyət sahəsidir. Deməli, Qarabağda ən innovativ səsyazma studiyasının yaradılması da prioritet hesab edilə bilər. Ərazilərin bərpasının intensivliyini artırmaq üçün xüsusi əmlak, torpaq, dotasiya və kredit imkanlarının yaradılmasını zəruri hesab edirik.Logistika sahəsindəbölgədə hava limanı və digər nəqliyyat növləri ilə yanaşı,inkişaf etmiş ölkələrin təcrübəsində öz effektivliyini təsdiqləmişsürət qatarlarının qurulması olduqca faydalı ola bilər. Belə ki, bunun əsas faydaları paytaxt ilə bölgə arasındaməsafənin maksimal azaldılması, digər regionlardan mütəxəssis və işçi qüvvəsi ilə bölgənin daha tez və rahat təmin olunmasıdır. Bölgədə nəzərdə tutulan yenidənqurma layihələrinə ölkə əhalisinin kütləvi cəlb olunması işlə təminatın yüksəldilməsinə səbəb olar vəeyni zamanda, azad olunmuş ərazilərdə demoqrafik siyasətimizə böyük təkanverə bilər.

Zəngilanın yerləşdiyi ərazi coğrafi, ticarət, logistika, iqtisadi və bütövlükdə strateji baxımdan qiymətləndirilərək, gələcəkdə ona Azad İqtisadi Zonastatusunun verilməsi məqsədəuyğun olardı.

Əsas məqsədişğaldan azad olunmuş regionu ticarət,turizm,təhsil, tibb,incəsənət seqmentlərinin cəmləşdiyi transmilli xab mərkəzinə çevirməkdir. Biznes, tibb, təhsil və xüsusən də hərbi sahələrininkişafı üçün xarici ölkələrdə yaşayanazərbaycanlıların və ölkəmizə faydası olan Türkiyə, İsrail və digər ölkələrdən peşəkarların cəlb edilməsi və onların müəyyən imtiyazlarla təşviq olunması məqsədəuyğun ola bilər.

Biznes mühitinin əlverişliliyinin artırılması, kiçik və orta biznes (KOB) subyektlərinin maraqlarının müdafiəsi, eyni zamanda, turizmin yaradılması və bunun üçün də xüsusi təşviq mexanizminin tətbiq edilməsini vacib hesab edirik.

Ərazidə, xüsusilə kənd təsərrüfatının, o cümlədən aqroparkların ən müasir üsullarla qurulması üçün İsrail təcrübəsindən istifadə edilməsini tövsiyə edirik. Burada ekoloji təmiz kənd təsərrüfatının inkişaf etdirilməsi də mümkündür.

Fikrimizcə, hər hansı bir regionun innovasiya və texnoloji mərkəz elan edilməsi üçün hər şeydən əvvəl regionun innovasiya və texnoloji potensialı qiymətlədirilməlidir. Bu gün Qarabağın innovasiya və texnoloji potensial səviyyəsi aşağıdır. Odur ki, əvvəlcə sözügedən potensial formalaşdırılmalıdır. Bu potensial Qarabağda olub, lakin düşmənlər tərəfindən dağıdılıb. Hələ bütövlükdə ölkə üzrə innovativ iqtisadiyyat qurulmayıb və biz bu yolda zəif addımlayırıq. Bu baxımdan Qarabağda ilk növbədə ənənəvi iqtisadiyyatın bərpası məqsədəuyğundur, sonra isə innovativ iqtisadiyyat hədəf olaraq qəbul edilməlidir.

Bölgədə təsnifata uyğun olaraq yeni iqtisadi rayonun yaradılması ilə əsas ənənəvi və rəqabətqabiliyyətli istehsal istiqamətlərinin bərpa edilməsi və bu istiqamətdə ilkin olaraq kiçik və orta sahibkarlığın təşviqini məqsədəuyğun hesab edirik.

İşğaldan azad olunmuş ərazilərdə innovativ iqtisadiyyatın tətbiq edilməsi və xüsusən investisiya lahiyələrinin həyata keçirilməsində özəl sektorun rolunun artırılması məqsədəuyğun olardı.

Eyni zamanda, regiona investisiya cəlbi ilə əlaqədar "investisiya mobilizasiya yolları" istiqamətində həm dünya azərbaycanlılarının, həm də beynəlxalq investisiya imkanlarının nəzərə alınmasını məqsədəuyğun hesab edirik.

Bölgəyə maliyyə resurslarının cəlb edilməsi vasitəsi kimi dövlət zəmanətli "Qarabağ istiqrazları"nın yaradılması da çıxış edə bilər. İşğaldan azad olunmuş ərazilərdə beynəlxalq maliyyə qurumlarının iştirakı ilə Qarabağın bərpası sığorta sisteminin (işğaldan bərpa istiqrazları və bərpa investisiya əmanətləri) qurulmasını vacib hesab edirik. Bütün yuxarıda qeyd edilən istiqamətlərin ana xətti isə heç şübhəsiz ki, milli birliyimizin qorunmasıdır. Məhz milli birliyimiz məqsədlərimizə çatmaq üçün əsas meyar hesab edilir.

Həsənov Asif Abuzər oğlu,
iqtisad üzrə fəlsəfə doktoru

Ərzaq, içki və tütünün istehlak qiymətləri indeksi artıb

2021-ci ilin aprel ayında ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi mart ayı ilə müqayisədə 100,4 faiz olub.

Dövlət Statistika Komitəsindən verilən məlumata əsasən, istehlak qiymətləri indeksi cari ilin yanvar-aprel aylarında ötən ilin müvafiq dövrü ilə müqayisədə isə 104,7 faiz təşkil edib.



Özəl tikinti müəssisələri ümumi inşaat işlərinin 88 faizini görüblər

2021-ci ilin dörd ayında tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş inşaat işlərinin 59,3 faizini tikinti, yenidənqurma və genişləndirmə, 14,5 faizini əsaslı təmir, 6,7 faizini cari təmir, 19,5 faizini isə digər tikinti işləri təşkil edib. Dövlət Statistika Komitəsindən bildirilib ki, ümumi inşaat işlərinin 88 faizini qeyri-dövlət tikinti müəssisələri yerinə yetiriblər.



Qara metallar və onlardan hazırlanan məmulatların idxalı azalıb



2021-ci ilin yanvar-aprel aylarında ölkəyə 165,9 min ton qara metallar və onlardan hazırlanan məmulatlar idxal olunub.

Dövlət Gömrük Komitəsinə (DGK) istinadla xəbər verilir ki, hesabat dövründə idxal edilən qara metallar və onlardan hazırlanan məmulatların dəyəri 225,2 milyon ABŞ dollarından çox olub.

Xatırladaq ki, ötən ilin eyni dövründə 370,7 milyon dollarlıq 316,4 min ton qara metallar və onlardan hazırlanan məmulatlar idxal edilib.

На сооружение образовательных заведений модульного типа в Азербайджане выделено 10 млн. манатов



Президент Азербайджана Ильхам Алиев 26 мая подписал распоряжение о продолжении работ по сооружению образовательных заведений модульного типа. Согласно распоряжению, с целью сооружения образовательных заведений модульного типа на территории Азербайджана из средств, указанных в подпункте 1.13.3 "Распределение средств, предусмотренных для государственных капвложений (инвестиционных расходов) в государственном бюджете на 2021 год", министерству образования выделяется 10 миллионов манатов. Минфину поручено обеспечить финансирование в сумме, предусмотренной в настоящем распоряжении, Кабмину - решить вытекающие из распоряжения вопросы.

Будет усилена социальная защита семей шехидов и участников войны



На основании распоряжения президента Ильхама Алиева в соответствии с «Азербайджан 2030: Национальные приоритеты социально-экономического развития» состоялось очередное заседание Рабочей подгруппы Комиссии по инклюзивному социальному развитию и социальному обеспечению, созданной с целью разработки «Стратегии социально-экономического развития на 2021-2025 годы».

Председатель Рабочей группы, министр труда и социальной защиты населения Сахиль Бабаев рассказал о важных социально-экономических успехах, достигнутых в Азербайджане за прошедший период.

Министр отметил, что в соответствии с Национальными приоритетами, будут продолжены усилия по развитию этих успехов, расширению программ социальной защиты и активной занятости, усилению социальной защиты семей шехидов и участников войны.

На заседании были проведены обсуждения в связи с проектом, подготовленным в рамках соответствующего параграфа указанной стратегии.

Тысячам граждан провели оценку инвалидности ВИДЕО

Государственная служба медико-социальной экспертизы и реабилитации при Министерстве труда и социальной защиты населения Азербайджана продолжает работу по установлению группы инвалидности.

В январе-апреле 2021 года около 10 тыс. человек получили группу инвалидности, из них 3 178 - первичную, остальные - повторную.

После установления инвалидности этим лицам через электронную систему осуществлено назначение соответствующих социальных выплат по инвалидности.

Напомним, определение инвалидности проводится объективно и прозрачно, без контакта гражданин-чиновник (эксперт), через электронную инфраструктуру (подсистема «инвалидность»), на основе данных, содержащихся в документах, загруженных учреждением здравоохранения в электронную систему.



Bloomberg: Цены на электронику вырастут из-за дефицита воды

Увеличение количества сбоев в поставках микросхем и рост цен на электронику и автомобили по всему миру могут произойти из-за проблем с климатом на Тайване. Крупнейшая страна-экспортер полупроводниковых чипов предупредила об усилении проблем в производстве по причине глобальной нехватки воды и электричества, пишет Bloomberg.

Засуха на Тайване, которая длится уже год, поставила национальную экономику под серьезный удар. Глобальное потепление в стране обернулось нехваткой электроэнергии и водных ресурсов, что отражается на деятельности тайваньских производителей микросхем, борющихся с мировым дефицитом полупроводников. Проблемы есть и в других отраслях промышленности, а также в сельском хозяйстве.

«В среднесрочной перспективе энергия и вода станут ключевыми факторами для Тайваня с точки зрения продовольственной безопасности и растущих инвестиций в полупроводниковую промышленность», — отметил представитель одного из крупнейших французских инвестиционных банков Natixis.

По данным сайта мониторинга изменений климата на Тайване Taiwan Adaptation Platform, с 1957 по 2006 годы лето в стране удлинилось на месяц, а зима стала примерно на 30 дней короче соответственно. Средняя температура за последние сто лет повысилась примерно на 1,3 градуса по Цельсию, что вдвое превышает общемировой показатель. По прогнозу метеорологов, до конца века температура вырастет еще на столько же.

От засухи страдают 23,5 миллиона жителей, которые ждут сезона дождей для пополнения водохранилищ. Из-за попыток заводов сохранить объемы производства, электричество иногда пропадает по всему острову.

Тайвань является одним из крупнейших производителей парниковых газов на душу населения. Государство взяло на себя обязательства с 2005 по 2050 годы сократить выбросы углерода вдвое. За последние шесть лет объемы генерируемой энергии из возобновляемых источников в стране увеличились в 1,5 раза.



Азербайджан рассчитывает согласовать с Японией проект Конвенции об отказе от двойного налогообложения


Азербайджан рассчитывает до конца 2021 года завершить согласование с Японией проекта конвенции об отказе от двойного налогообложения, говорится в сообщении Государственной налоговой службы (ГНС).

«Представители правительства Азербайджана провели с японскими коллегами вторую в 2021 году встречу с целью согласования проекта конвенции об отказе двойного налогообложения», - отмечает Служба.

В ходе переговоров было отмечено, что в 2022 году будет отмечаться «Год Азербайджано-Японской дружбы».

«Исходя из этого, важно завершить до конца 2021 года согласование статей конвенции. Подписание новой конвенции между нашими странами будет иметь большое значение с точки зрения создания благоприятных условий, как для японских, так и для азербайджанских инвесторов и развития внешнеэкономической деятельности. Вместе с тем, проект конвенции будет предусматривать сотрудничество и обмен информацией между налоговыми органами двух стран в сфере уклонения от уплаты налогов», - подчеркивается в информации.

ГНС подчеркивает, что в ходе двухдневных



консультаций сторонам удалось согласовать большую часть документа, в настоящее время открытыми остаются некоторые статьи, согласование которых продолжится в ходе очередного раунда переговоров.

Как сообщалось ранее, в настоящее время вопрос отказа от двойного налогообложения между странами регулируется на основе конвенции об устранении двойного налогообложения, подписанной в 1986 году СССР и Японией. Азербайджан принцип отказа от двойного налогообложения применяет с 54 странами.

Вице-премьер России призвал Армению поскорее разблокировать «Зангезурский коридор»

Вице-премьер России Алексей Оверчук призвал Армению руководствоваться здравым смыслом и приступить к разблокированию транспортных путей на Южном Кавказе. С таким заявлением он выступил на церемонии отправки новых вагонов производства ОАО «Тверской вагоностроительный завод» (ТВЗ) в Армению, передает РИА Новости.

«Мы все очень ждем и надеемся, что здесь будет преобладать здравый смысл и мы скоро сможем приступить к разблокированию транспортных путей в регионе Закавказья», — сказал Оверчук, подчеркнув, что для Армении поставка новых вагонов очень важна.

По его словам, в нынешних реалиях развитие транспортной инфраструктуры в регионе «важно как никогда». Оверчук отметил, что сегодня открываются совершенно новые условия для развития всего региона - и в плане экономики, и в плане развития транспорта.

«Это может создать уникальные условия для раскрытия всего экономического потенциала Армении, это может создать уникальные, удивительные условия для того, чтобы в полной мере реализовать нашу евразийскую интеграцию», — отметил вице-премьер.



COVID-19 pasportunun əldə edilməsi qaydaları açıqlanıb



İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi COVID-19 pasportunun əldə edilməsi qaydalarını açıqlayıb.

Agentlikdən bildirilib ki, COVID-19 pasportunun iki növü var.

Bunlardan biri "COVID-19 vaksin sertifikatı", digəri isə "COVID-19 immunitet sertifikatı"dır. "COVID-19 vaksin sertifikatı" COVID-19 xəstəliyi əleyhinə vaksinasiya olunanlara (iki dozada), "COVID-19 immunitet sertifikatı" isə xəstəliyə yoluxub sağalmış şəxslərə verilir.

Sözügedən sertifikatları əldə etmək üçün İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin rəsmi internet səhifəsində E-xidmətlər bölməsinin "Şəxsi Kabinetə giriş" (https://kabinet.its.gov.az/az/index) altbölməsi seçilməlidir. Bu bölmə "MyGov" portalına da inteqrasiya edilmişdir.

Burada "ASAN Login" sistemində istifadəçi FİN-i, "Asan İmza", Elektron imza və ya BSXM (Bank Sertifikat Xidmətləri Mərkəzi) imzası ilə qeydiyyatdan keçmək lazımdır. Qeydiyyatdan keçdikdən sonra açılan pəncərədə "Digər xidmətlər" bölməsi seçilməlidir.

"Digər xidmətlər" bölməsi seçildikdə ekranda "COVID-19 vaksin sertifikatı" və ya "COVID-19 immunitet sertifikatı" seçimləri əks olunur.

Əgər vətəndaş vaksin olunubsa, "COVID-19 vaksin sertifikatı" seçimini etməlidir. Xəstəliyə yoluxub sağalmış şəxs isə "COVID-19 immunitet sertifikatı" seçimini etməlidir.

Bu zaman təqdim olunan COVID-19 pasportunu elektron formatda yükləmək, eləcə də çap versiyada əldə etmək olar. Qeyd edək ki, COVID-19 pasportunun doğruluğunun sənəddə əks olunan "QR Code" vasitəsi ilə yoxlanılması da mümkündür.

Əlavə olaraq bildirək ki, vətəndaşlar COVID-19 pasportunu "E-Təbib" mobil tətbiqi vasitəsi ilə də əldə edə bilərlər".



27 may - 2 iyun 2021-ci il

ƏSAS HƏDƏF - DAYANIQLI VƏ DAVAMLI İNKİŞAFI TƏMİN ETMƏKDİR!



Bir tərəfdən pandemiya və onun törətdiyi çətinliklər, digər tərəfdən Vətən müharibəsi Azərbaycan iqtisadiyyatını ciddi sınaqlarla üzləşdirdi. Lakin məlum oldu ki, möhkəm təməl üzərində qurulmuş iqtisadiyyatımız istənilən kataklizmlərdən uğurla çıxmağa qadirdir. Bütün çətinliklərə rəğmən, son illər sistemli və ardıcıl şəkildə aparılan struktur və idarəetmə islahatları belə ağır dönəmdə də davam etdirildi. Nəzərdə tutulan bütün tədbirlər vaxtında və yüksək keyfiyyətlə icra olundu. Pandemiya ilə mübarizə şəraitində də yeni layihələrin icrasına, iş yerlərinin yaradılmasına, özünüməşğulluğun təmin olunmasına prioritet istiqamət kimi baxıldı.

Azərbaycanda əmək və məşğulluq sahəsində həyata keçirilən islahatlar nəticəsində əmək qanunvericiliyi beynəlxalq normalara uyğunlaşdırıldı, əmək bazasının təkmilləşdirilməsi, əmək münasibətlərinin sosial dialoq, müqavilələr və sazişlər əsasında tənzimlənməsi öz müsbət nəticələrini göstərməyə başladı.

Son illər əmək, məşğulluq və sosial müdafiə sektorunda reallaşdırılan layihələr, "Məşğulluq haqqında" Qanunun qəbul edilməsi, "İşsizlikdən sığorta haqqında" Qanunun qüvvəyə minməsi, Sığorta Fondunun yaradılması, vergi və sosial sığorta sahəsində islahatların aparılması, bu istiqamətdə yeni texnologiyaların tətbiqi müsbət hal kimi qiymətləndirilməlidir. Bütün bu tədbirlər idarəetmə və iqtisadi strukturlarda aparılan islahatlarla paralel həyata keçirilir. Ölkə prezidentinin dönə-dönə dilə gətirdiyi kimi, struktur və kadr islahatları dövlət idarəetməsinin səmərəliliyinin artırılması, şəffaflığın təmin olunması, neqativ halların aradan qaldırılması, peşəkar kadr zümrəsinin formalaşdırılması və həmin gənclərin mühüm vəzifələrə irəli çəkilməsi kimi məsələləri özündə ehtiva edir.

Dövlət idarəetmə islahatları sosial-iqtisadi islahatların sistemliliyini və dayanıqlığını təmin edir və ölkəmizin davamlı inkişafını şərtləndirir. İslahatlara inam artdıqca, bu prosesinin sürətləndirilməsinin zəruriliyi bütün cəmiyyət üzvləri tərəfindən dərk edildikcə ümumxalq dəstəyi qazanır. Belə olan halda cəmiyyətdə ümumi konseptual baxış formalaşır və heç bir inzibati metodların işlənməsinə, tətbiqinə lüzum qalmır.

Bu gün qlobal iqtisadiyyatda ciddi dəyişikliklər baş verir. Artıq dünyada rəqabət idarəetmə sistemləri arasında gedir. Bu çağırışların fəal iştirakçısına çevrilən Azərbaycan məhz idarəetmənin səmərəliliyini artırmaqla qlobal miqyasda rəqabətlilik potensialını gücləndirməyə can atır. Bunun üçün bir sıra mühüm addımlar atılmaqdadır. İlk növbədə, daha sağlam prinsiplərə əsaslanan iqtisadi siyasət yeritməklə dövlət müəssisələrinin potensialının artırılması, onların büdcə xərclərindən asılılığının azaldılması prosesi sürətləndirilir.

Cənab Prezident İlham Əliyevin 2020-ci il 7 avqust tarixli sərəncamına əsasən yaradılan Azərbaycan İnvestisiya Holdinqinin fəaliyyətində bu amil xüsusilə önə çıxarılır. Yeni yaradılan Holdinq idarəçiliyinə verilən qurumların maliyyə sağlamlığını və dayanıqlığını yaxşılaşdırmaq, maliyyə resurslarından səmərəli istifadəni təmin etmək kimi vacib məsələləri həll etməlidir.

Şübhəsiz ki, yaxın vaxtlarda bu qurumun fəaliyyəti respublikada yerli və xarici investisiyaların sağlam təməllər üzərində qurulmasına öz təsirini göstərəcək. Pandemiya istər-istəməz problemlərin çevik həllinə mənfi təsir göstərir. Lakin işlər davam etdirilir. Postpandemiya dövründə Azərbaycan iqtisadiyyatında yüksək dinamikanın şahidi olacağıq. Ən asası xarici investisiyaların ölkə iqtisadiyyatına daha fəal şəkildə cəlb olunması tendensiyası baş verəcək.

Azərbaycan İnvestisiya Holdinqinin yaradılması yaxın illərdə göstərilən məsələlərin gerçəkləşməsi ilə yanaşı, həm də dövlət müəssisələri vasitəsilə yatırılan investisiyaların səmərəliliyinin artırılmasına, investisiyalardan əldə olunan əlavə dəyərin bilavasitə iqtisadiyyata yönəldilməsinə böyük təkan verəcək. Bu xüsusda danışarkən onu da xatırlatmaq lazımdır ki, ölkəmizin Vətən müharibəsindən sonrakı dövr üçün inkişaf hədəfləri müəyyənləşdirilib. Çünki bu möhtəşəm qələbə ilə Cənubi Qafqazda yeni reallıqlar meydana çıxıb və bu çağırışlarda Azərbaycanın yeri və rolu əvəzsizdir. Məhz buna görə də ölkəmizin yeni reallıqlar fonunda mövcud imkanlardan yararlanmaq haqqına sahib olması birmənalıdır. Artıq 18 ildən artıqdır ki, Azərbaycanın təşəbbüsü və iştirakı ilə gerçəkləşən bir çox layihələrin icrası bölgəyə canlanma və tərəqqi gətirib, qarşılıqlı faydalı əməkdaşlıq platforması formalaşdırıb. Dövlətimizin yürütdüyü enerji və nəqliyyat siyasəti nəinki enerji və nəqliyyat dəhlizlərinin yaranmasına gətirib çıxarıb, eyni zamanda, bölgədə uzunmüddətli və etibarlı əməkdaşlıq mühiti yaradıb.

Bütün bu və digər məqamlar Azərbaycanın keyfiyyətcə yeni transmilli enerji, nəqliyyat, logistika və ticarət mərkəzinə keçid mərhələsinə daxil olduğunu təcəssüm etdirir. Bu prosesin sürətləndirilməsini şərtləndirən mühüm amil dövlət başçısının ortaya qoyduğu konseptual və praqmatik baxışlar və onların reallaşması üçün atılan zəruri addımlardır. Bu baxımdan Prezident İlham Əliyevin 2 fevral 2021-ci il tarixli "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında sərəncamı müstəsna əhəmiyyət kəsb edir. Bu sənəd qarşıdakı illərdə respublikamızın əsas sosial-iqtisadi inkişaf istiqamətlərini və buna uyğun milli prioritetlərini müəyyənləşdirməklə əldə olunan uğurların miqyasının və həcminin genişləndirilməsi məqsədini daşıyır. Adı çəkilən sərəncamla növbəti onillikdə ölkəmizin sosial-iqtisadi inkişafına dair beş milli prioritetin gerçəkləşdirilməsi nəzərdə tutulur. Bunlar aşağıdakılardır: dayanıqlı, rəqabətqabiliyyətli iqtisadiyyatın, dinamik inklüziv, sosial ədalətə əsaslanan cəmiyyətin formalaşması; respublikamızın rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanına çevrilməsi; təmiz ətraf mühit; "yaşıl artım" və işğaldan azad olunan ərazilərdə "Böyük qayıdış proqramı"nın reallaşdırılması.

Bir məqama da xüsusi diqqət çəkmək istərdik. Ölkə başçısının həyata keçirdiyi islahat proqramının əsas özəlliyi ondan ibarətdir ki, bu proqramlar davamlı, genişmiqyaslı xarakter daşımaqla sosial-iqtisadi həyatın bütün sahələrini əhatə edir. Başqa sözlə desək, dövlət başçısının həyata keçirdiyi islahatlar fonunda müasir iqtisadi və sosial infrastrukturun formalaşdırılması respublika iqtisadiyyatının sürətli inkişafını və onun rəqabətqabiliyyətliliyinin yüksəlməsini təmin edir. Bu proqramlar həyata keçirilərkən məşğulluğun təmin edilməsi, işsizliyin və yoxsulluğun aradan qaldırılması, səhiyyə sisteminin müasir standartlara uyğun yenidən qurulması, içməli su probleminin həll edilməsi, milli həmrəyliyin və ictimai-siyasi sabitliyin təmin olunması məsələləri üstün mövqelərə çıxarılır. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritet"in icrası nəticəsində dayanıqlı, rəqabətqabiliyyətli iqtisadiyyatın reallaşdırılması davamlı inkişafın daha da sürətlənməsinə möhkəm zəmin yaradacaq. Bu prioritetlərin səmərəli həyata keçirilməsi üçün iki amil mühüm əhəmiyyət kəsb edir: davamlı və yüksək iqtisadi artım, daxili və xarici təsirlərə dayanıqlılıq.

Davamlı və yüksək artım iqtisadiyyatı hər bir vətəndaşın sosial vəziyyətinə və rifahına birbaşa təsir edən amildir. Çünki iqtisadiyyatın davamlı və yüksək templə artımı ölkədə adambaşına düşən milli gəliri yüksək səviyyədə gerçəkləşdirir, yüksək gəlirli iş yerləri yaratmaqla həyat səviyyəsinin ilbəil yaxşılaşmasını təmin edir.

30 ildən artıqdır ki, Ermənistanın məkrli siyasəti Azərbaycanın inkişafına ciddi əngəl idi. Bəlkə də torpaqlarımız işğal altına düşməsəydi, bu illər ərzində ölkəmiz dünyanın ən inkişaf etmiş dövlətləri sırasında özünə yer alacaqdı. Ermənistan isə bugünkü rəzil və miskin duruma düşməyəcəkdi. Nə etməli, olan oldu, çox təəssüf!.. Şükürlər olsun ki, bu gün ölkəmizin üzərindən qara buludlar çəkilir, onun yerini günəşin al şəfəqləri tutur. Azərbaycan isə nura, aydınlığa doğru inamla irəliləyir.

Zülfü İLYASOV,
xüsusi müxbir

Nur-Sultanda "Azərbaycan Ticarət Evi"nin açılışı olub

Qazaxıstanın paytaxtı Nur-Sultanda "Azərbaycan Ticarət Evi"nin açılış mərasimi keçirilib. Bununla əlaqədar təşkil olunmuş tədbirdə hər iki ölkənin rəsmi şəxsləri, Azərbaycan-Qazaxıstan iqtisadi əlaqələr üzrə işçi qrupunun üzvləri, sahibkarlar, bu ölkədə akkreditə olunan diplomatik korpusun rəhbərləri iştirak ediblər.

Azərbaycan Respublikası Prezidentinin müvafiq tapşırığının icrası olaraq İqtisadiyyat Nazirliyi tərəfindən yaradılmış "Azərbaycan Ticarət Evi" "Made in Azerbaijan" brendinin Qazaxıstan bazarında daha çox tanıdılmasına, Azərbaycan məhsullarının ixracının təşviqi və genişləndirilməsinə dəstək göstərəcək, Nur-Sultanda satışını təşkil edəcək, bu sahədə əlaqələndirməni həyata keçirəcək.

Azərbaycanın Qazaxıstandakı səfiri Rəşad Məmmədov bildirib ki, 28 May - Respublika Günü ərəfəsində keçirilən bu əlamətdar hadisə iki ölkə arasında iqtisadi, ticari münasibətlərin bundan sonra da mökəmlənməsində böyük rol oynayacaq. Bu Qazaxıstanda açılan ilk ticarət evidir. Qazaxıstan ərazisində bundan sonra da ticarət evlərinin açılması davam edəcək.

Onun sözlərinə görə, Ticarət evinin açılmasında həm qazaxıstanlı istehlakçılar, həm də Azərbaycan istehsalçıları maraqlıdır. Azərbaycan hökuməti tərəfinidən bu əlaqələrin qurulmasına və Qazaxıstanda yaradılan müəssisə və təşkilatların fəaliyyətinə lazımi yardım göstərilir və gələcəkdə də kömək göstəriləcək.

Səfirin sözlərinə görə, Azərbaycan investorları Qazaxıstanda bir sıra mühüm layihələrin icrasında iştirakçı qismində çıxış edirlər. Bunların sırasına fabriklərin inşası, xidmət şirkətlərinin yaradılması, neft və qaz-kondensat yataqlarının işlənməsi daxildir.

Hazırda Aktauda transformator zavodu tikilir. Bu yaxınlarda isə Azərbaycan sahibkarları tərəfindən Qazaxıstanda boya istehsalına start verilib.

Qazaxıstan energetika nazirinin müavini Aset Maqauov "Azərbaycan Ticarət Evi"nin fəaliyyətə başlamasının ikitərəfli iqtisadi əlaqələrin inkişafında mühüm addım olduğunu, ölkələrimiz arasında iqtisadi əməkdaşlığın və işgüzar münasibətlərin inkişafında



əhəmiyyətini vurğulayıb. Bildirib ki, "Azərbaycan Ticarət Evi"nin açılması iki ölkə arasında işgüzar dairələr arasında əlaqələrin genişləndirilməsinə də öz töhfəsini verəcəkdir.

Mərasimə onlayn qatılan "Caspian Energy Club" şirkətinin sədri və baş icraçı direktoru Telman Əliyev bildirib ki, "Azərbaycan Ticarət Evi"nin açılması iki ölkə arasında iqtisadi əlaqələrin genişləndirilməsinə mühüm töhfə verəcək.

Daha sonra ticarət evində Azərbaycan şirkətlərinin müxtəlif növ məhsullarının sərgisi təşkil olunub. Daimi fəaliyyət göstərəcək sərgidə Azərbaycan şirkətlərinin istehsal etdiyi çay, mürəbbə, meyvə şirələri, mineral sular, konserv məhsulları, qənnadı məmulatları, kosmetik məhsullar və sair nümayiş olunur. Bundan başqa, ticarət evində Azərbaycanın zəngin mətbəxini təqdim edən "Dolma"restoranı da fəaliyyət göstərir.

Qazaxıstanda açılan "Azərbaycan Ticarət Evi" ölkəmizin xaricdə yaradılmış sayca 8-ci ticarət evidir.

Amreyev: Zəngəzur dəhlizi bütün Türk dünyasını birləşdirəcək



Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Bağdad Amreyev Prezident İlham Əliyevi Azərbaycan Respublikasının Milli bayramı - Respublika Günü münasibətilə təbrik edib. Bu barədə dövlət başçısının rəsmi saytında məlumat verilir.

Amreyev bütün Türk dünyasını birləşdirəcək Zəngəzur dəhlizinin Cənubi Qafqazın inkişafına töhfə verəcəyinə əmin olduğunu bildirib.

"Zati-alinizin liderliyi və qətiyyəti sayəsində Türk dünyasını birləşdirəcək Zəngəzur dəhlizində yenidən yaradılacaq nəqliyyat, kommunikasiya, infrastruktur layihələrinin üzv dövlətlərimiz başda olmaqla, bütün region ölkələrinin iqtisadiyyatının inkişafına, sülh və sabitliyin möhkəmlənməsinə mühüm töhfə verəcəyinə bir daha əmin olduğumu bildirmək istərdim", - deyə təbrikdə qeyd olunur.

Amreyev vurğulayıb ki, Türk Şurası çərçivəsində çoxşaxəli əməkdaşlıq istiqamətləri daha da genişlənərək enerji, kənd təsərrüfatı, səhiyyə və miqrasiya sahələrini də əhatə edib.

Qızılın qiyməti daha da yüksəlib



ABŞ Mərkəzi Bankından (Fed) verilən ardıcıl açıqlamaların ardından, ABŞ Xəzinə istiqrazı faizlərinin geriləməsilə qızılın unsiyasının qiyməti 1900 dolları keçib.

Fed sədrinin müvini Richard Clarida inflyasiyanın yüksəlməsinin böyük ehtimalla müvəqqəti olacağını bildirib. Bu da istiqraz faizlərinin aşağı düşməsinə səbəb olub.

10 illik ABŞ Xəzinə istiqrazının faizi həftəyə 1,62% səviyyəsində başladıqdan sonra 1,57% səviyyəsinə geriləyib. Bloomberg Dollar İndeksi isə həftəyə 1119 səviyyəsində başladıqdan sonra geriləyərək 1113 dollar səviyyəsinə düşüb.

2021-ci ilin ilk üç ayında ucuzlaşdıqdan sonra, qızılın unsiyasının qiyməti bu gün 1900 dolları keçib. Sonuncu dəfə Yanvar ayının əvvəlində bu səviyyələrdə olan qızılın qiyməti, sonra istiqraz faizlərindəki yüksəlişlə əlaqədar olaraq 1700 dollardan da aşağı düşmüşdü. Bakı vaxtı ilə saat 09:34-də qızılın unsiyası 1906 dollardan ticarət olunub.

3 qlobal təşkilatdan neft qiyməti proqnozu

İran ilə yenidən nüvə razılaşması olacağı, ABŞ-ın tətbiq etdiyi sanksiyaların ləğv ediləcəyi və ölkənin neft hasilatının artacağı gözlənilir. Bu gözləntilər neft qiymətlərinə təsir edir. İran Prezidenti Həsən Ruhani ölkəsinə tətbiq olunan sanksiyaların ləğv olunacağını açıqlayıb. Ruhaninin açıqlamasının ardından neft qiymətləri düşmüşdü. Mövcud şərtləri qiymətləndirən qlobal investisiya bankları Goldman Sachs, Citigroup və Barclays neftlə əlaqədar yenilənmiş proqnozlarını açıqlayıblar. "Goldman Sachs", bu ilin dördüncü rübündə neftin qiymətinin 80 dollar/barelə çatacağını gözləyir.

İndi neft bazarında diqqətlər 2015-ci ildə bağlanmış, ancaq əvvəlki ABŞ Prezidenti Donald Trampın qərarı ilə ABŞ-ın çıxdığı nüvə razılaşmasının yenidən bərpa edilib edilməyəcəyinə yönəlib. Məlumata görə, Vyanada keçirilən danışıqlarda sanksiyalar məsələsində ümumi çərçivədə razılaşma təmin edilib, diplomatlar son detalları müzakirə edirlər.

Sanksiyaların və neft embarqosunun ləğv edilməsilə ən optimist ssenaridə İranın son aylardakı gündəlik 2.4 milyon barel olan neft istehsalının gündəlik 4 milyon barelə yüksələcəyi gözlənilir.

Dünyada peyvəndləmənin sürətlənməsilə neftə tələb artır. Eyni zamanda, OPEC+ üzvləri arasında hasilat məhdudiyyətlərinin davamlılığı barədə ciddi fikir ayrılığı yoxdur. Bəs belə bir şərtlərdə İranın da yenidən bazara daxil olması haqqında təşkilatlar nə düşünür?

"Goldman Sach"a görə, İranın yayın sonuna qədər oyuna geri dönəcəyi ehtimalı artıq neft qiymətlərində əks edilib. Eyni zamanda, peyvəndləmənin genişlənməsilə neftə tələb yaxşılaşır. Ölkələrin iqtisadiyyatlarında və səyahətlərdə yaxşılaşma gözlənilir. Bu səbəbdən neft qiymətlərindəki yüksəliş davam edəcək. Hər nə qədər iyul ayında İran aqressiv bir şəkildə bazara daxil olsa da, "Goldman Sach" 2021-ci ilin 4-cü rübündə Brent neftinin qiymətinin 80 dollara yüksələcəyini təxmin edir.

"Citigroup" isə əsas ssenarisində İranın iyul-avqust aylarında istehsalını gündəlik 500 min barel artıracağını gözləyir. Təşkilat İranın hasilatını ilin son rübündə daha 100 min barel, 2022-ci ildə isə daha gündəlik 700 min barel artıracağını təxmin edir.

"Barclays" İran ilə razılaşmanın ilin ikinci yarısında neft qiymətlərinə təzyiq yaradacağını gözləyir. Təşkilat 2021-ci il üzrə orta qiymət proqnozlarını Brent nefti üçün 66 dollar, ABŞ xam nefti üçün isə 62 dollar olaraq qoruyur.



Ötən il qlobal borclar 24 trilyon dollar artıb



Qlobal borc öhdəlikləri ölkələr arasında inkişaf uçurumlarını daha da dərinləşdirir. Pandemiyanın vurduğu zərərlərin bərpası da belə vəziyyətdə çətin görünür.

Moody's Analytics şirkəti yeni hesabatında qlobal borclanma səviyyəsinin görünməmiş dərəcədə artması barədə xəbərdarlıq edib.

Ötən il dünya ölkələrinin borcları 24 trilyon dollar artıb. Bu isə qlobal səviyyədə ÜDM-in 366%-i deməkdir. Hesabata əsasən, inkişaf etməkdə olan ölkələrin ödənilməyən borc öhdəlikləri son onillikdə iki dəfə artıb və hazırda qlobal borcların üçdə birini təşkil edir.

"Pandemiyanın gətirdiyi problemlər bütün növ borcları artırıb... Burda ən böyük pay dövlət borcunun üzərinə düşür, bu isə təəccüblü deyil. Çünki ötən il bütün dünyada vergi ödəyicilərinin büdcə qarşısında öhdəlikləri demək olar ki, çox cüzi həcmdə yerinə yetirilib. Büdcə kəsirini qapatmaq və fiskal stimullaşdırma proqramlarına getmək üçün hökumətlərə həmişəkindən daha çox vəsait lazım olub", - Moody's Analytics-in Asiya-Sakit okean regionu üzrə baş iqtisadçısı Stiv Kokran CNBC televiziyasına müsahibəsində bildirib.

Ekspertlər borc yükü səbəbindən inkişaf etməkdə olan ölkələrlə inkişaf etmiş iqtisadiyyatlar arasındakı fərqin daha da dərinləşəcəyini proqnozlaşdırır. Türkiyə, Vyetnam və Braziliya kimi ölkələr birdən artıq sektorda rekord borclanma həddinə görə hesabatda xüsusi qeyd olunub. Hindistan, Argentina, Malayziya və digər inkişaf etməkdə olan ölkələr koronavirus pandemiyasının yeni dalğası ilə mübarizə aparır. Bu iki amil cari ildə iqtisadiyyatın bərpası səviyyəsində adıçəkilən ölkələr qrupunun inkişaf etmiş ölkələrdən geri qalmasına təkan verən əsas səbəblər sırasında olacaq.

"G7" ölkələri daş kömürdən imtina etməyə qərar verdilər



"Böyük yeddilik" (G7) yanacaq kimi daş kömürdən istifadəni dayandırmağa qərar verib və bununla da siyasətini Paris iqlim sazişinin hədəfləri ilə uyğunlaşdırıb. Banker.az "İz.ru"-ya istinadən xəbər verir ki, bu barədə "Bloomberg" agentliyi məlumat verib.


İmtina qərarı "G7" ölkələrinin ekologiya, iqlim və ətraf mühit nazirlərinin (Fransa, Böyük Britaniya, ABŞ, İtaliya, Almaniya, Yaponiya və Kanada) 21 may tarixli iclasında qəbul edilib. Eyni zamanda müəyyən istisnalara yol verilir. Məsələn, hələ ki məhdudiyyətlər yalnız kömür layihələrinə qoyulan dövlət investisiyalarına şamil edilir.

Qeyd olunan ölkələrin üzərinə "2020-ci illərdə atmosferə zərərli emissiyaların əhəmiyyətli dərəcədə azaldılması barədə öhdəliklər" götürəcəkləri bildirilir. Bu öhdəliklərin tam olaraq nə demək olduğu açıqlanmır.

Yaponiya 2019-cu ilin sonunda "G7" ölkələrinin ümumi dəyəri 6.6 milyard dollar olan müqavilələrin yarısına qarşı çıxıb. Nəticədə ölkə cəmiyyətin digər üzvləri ilə güclərini birləşdirməyə razı olub.

2015-ci il Paris iqlim sazişinə əsasən dünya ölkələri qlobal istilik artımını ildə 1.5 dərəcə Selsi səviyyəsində saxlamaq üçün aktiv hərəkətə keçməlidirlər.

ÜST: Hindistandakı koronavirus ştammı daha 60 ölkədə yayıla bilər



Hindistandakı koronavirus ştammının 53 ölkədə yayılması mümkündür. Bu barədə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) həftəlik hesabatında bildirilir. Banker.az bu barədə "Kommersant"a istinadən xəbər verir. Təşkilat qeyri-rəsmi məlumatlara görə, onun daha yeddi ölkədə aşkar edildiyini yazır. Əgər bu təsdiqlənərsə, ştammın yayıldığı ərazilərin sayı 60-a çatacaq. Həftə ərzində koronavirusun bu növünün qeydə alındığı ölkələr sırasına Braziliya, Əlcəzair, Keniya, Qana və Kuraçao daxil olub. "B.1.617" adlanan bu virus ilk dəfə Hindistanda aşkar edilib. Alimlərin fikrincə, o daha dayanıqlı və təhlükəlidir.

Qeyd edək ki, koronavirus pandemiyasının daha da geniş yayılması fonunda Hindistanın xarici işlər naziri ABŞ-a səfər edib. Görüş zamanı müzakirə olunan əsas mövzulardan biri Covid-19 ilə mübarizədə təcili yardımdır.

ABŞ-ın neft ehtiyatları azalıb

Bu barədə əsasən özəl sektorun maliyyələşdirdiyi Amerika Neft İnstitutu (API) məlumat yayıb. Bildirilir ki, ötən hesabat həftəsində ABŞ-ın xam neft ehtiyatları əvvəlki həftə ilə müqayisədə 440 min barel azalıb. Bazar proqnozları da ehtiyatların azalacağı istiqamətində idi. Əvvəlki həftə neft ehtiyatları 620 min barel artmışdı.



Ölkədəki ehtiyatlarla bağlı rəsmi rəqəmlər ABŞ-ın Enerji İnformasiya Administrasiyası (EIA) tərəfindən açıqlanacaq.

"Premium Bank" ASC-nin 31 dekabr 2020-ci il tarixinə BALANS HESABATI

(min Azərbaycan manatı ilə)

	Qeydlər	2020 AZN	2019 AZN
Aktivlər			
Nağd vəsaitlər və Mərkəzi Bankda pul vəsaitləri	5	**37,352**	35,302
Digər banklardakı pul vəsaitləri	7	**43,596**	38,472
Müştərilərə verilmiş kredit və avanslar	8	**539,186**	533,964
Əmlak, avadanlıq və Aktivlərdən istifadə hüququ	9	**8,462**	7,107
Qeyri-maddi aktivlər		**1,589**	1,287
Digər aktivlər	10	**6,946**	6,787
Cəmi aktivlər		**637,131**	622,919
Öhdəliklər			
Bank və maliyyə təşkilatlarından kredit və depozitlər	11	**39,627**	37,585
Müştərilərdən alınmış depozitlər	12	**431,252**	471,451
Digər öhdəliklər	13	**6,761**	7,805
Cəmi öhdəliklər		**477,640**	516,841
Kapital			
Nizamnamə kapitalı	14	**154,601**	104,601
Bölüşdürülməmiş mənfəət		**4,890**	1,477
Cəmi kapital		**159,491**	106,078
Cəmi kapital və öhdəliklər		**637, 131**	622,919

(min Azərbaycan manatı ilə)

	Qeydlər	2020 AZN	2019 AZN
Faiz gəlirləri	15	**34,770**	38,234
Faiz xərcləri	15	**(19,686)**	(12,866)
Xalis faiz gəlirləri	15	**15,084**	25,368
Müştərilərə verilmiş kredit və avanslar üzrə ehtimal edilən zərərlər üçün ayılmış ehtiyat	8.1	**2,628**	(1,528)
Ehtimal edilən zərərlər üzrə ehtiyatlardan sonra faiz gəlirləri		**17,712**	23,840
Xarici valyuta ilə əməliyyatlar üzrə xalis gəlir	16	**4,276**	5,054
Haqq və komissiya gəlirləri	17	**9,753**	16,117
Haqq və komissiya xərcləri	18	**(3,865)**	(4,872)
Əməliyyat gəlirləri		**27,876**	40,139
Digər gəlirlər	19	**34**	20
Köhnəlmə və amortizasiya xərcləri	20	**(2,414)**	(1,628)
İnzibati və ümumi xərclər	21	**(20,633)**	(27,384)
Vergidən əvvəlki illik mənfəət		**4,863**	11,147
Mənfəət vergisi	22	**(1,450)**	(2,339)
İllik mənfəət		**3,413**	8,808
Digər məcmu gəlirlər		**-**	-
İl üzrə cəmi məcmu gəlir		**3,413**	8,808
Bankın sahiblərinə aid olan, əsas və azaldılmış bir səhm üzrə qazanc (hər səhmə manatla ifadə olunur)	29	**3.40**	12.97

31 dekabr 2020-ci ildə tamamlanmış ilin maliyyə hesabatları 30 aprel 2021-ci il tarixində İdarə Heyəti tərəfindən təsdiq edilmiş və aşağıdakılar tərəfindən onların adından imzalanmışdır:

Mahir Nəcəfov
İdarə heyətinin sədri

Elşən Səfərov
Maliyyə direktoru

Bakı, Azərbaycan Respublikası

«Qala Maşınqayırma» ASC-nin 31 dekabr 2020-ci il tarixinə BALANS HESABATI

31 dekabr 2020-ci il tarixinə — *Azərbaycan Manatı ilə*

	Qeyd	31 dekabr 2020-ci il	31 dekabr 2019-cu il
AKTİVLƏR			
Uzunmüddətli aktivlər			
Torpaq, tikili və avadanlıqlar	7	1 633 534	1 791 808
Qeyri-maddi aktivlər	8	-	-
İnvestisiyalar	9	-	-
		1 633 534	*1 791 808*
Qısamüddətli aktivlər			
Ehtiyatlar	10	1 193 807	821 410
Qısamüddətli debitor borcları	11	62 762	243 609
Pul vəsaitləri və onların ekvivalentləri	13	3 885	8 352
Sair qısamüddətli maliyyə aktivləri	14	-	-
Sair qısamüddətli aktivlər	12	2 021	1 488
		1 262 475	*1 074 859*
CƏMİ AKTİVLƏR		**2 896 009**	**2 866 667**
KAPİTAL			
Səhmdar (Nizamnamə) kapitalı	18	239 918	239 918
Kapital ehtiyatları	19	880 060	880 060
Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)		1 603 506	1 620 084
CƏMİ KAPİTAL		**2 723 484**	**2 740 062**
ÖHDƏLİKLƏR			
Qısamüddətli öhdəliklər			
Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər	15	17 208	43 103
Qısamüddətli kreditor borcları	16	54 695	49 880
Sair qısamüddətli öhdəliklər	17	100 622	33 622
		172 525	*126 605*
CƏMİ ÖHDƏLİKLƏR		**172 525**	**126 605**
CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR		**2 896 009**	**2 866 667**

31 dekabr 2020-ci il tarixinə — *Azərbaycan Manatı ilə*

	Qeyd	2020-ci il	2019-cu il
Əsas əməliyyat gəlirləri	20	754 901	1 898 576
Əsas əməliyyat xərcləri	23	(627 858)	(1 715 449)
Əməliyyt mənfəəti (zərəri)		**127 043**	**183 127**
Sair əməliyyat gəlirləri	21	2 250	-
Sair əməliyyat xərcləri	25	(21 383)	(23 607)
Fövqəladə gəlirlər	22	-	4 192
Fövqəladə xərclər	24	(32 906)	(15 093)
Vergitutmadan əvvəl mənfəət (zərər)		**75 004**	**148 619**
Mənfəət vergisi	26	(21 582)	(32 742)
Hesabat dövründə xalis mənfəət (zərər)		**53 422**	**115 877**
Mənfəətdə iştirak payı:			
Səhmdarların payı		53 422	115 877
		53 422	**115 877**

Hüseyn Rzayev
Baş direktor
24 may 2021-ci il

Zöhrə Hacıyeva
Baş mühasib
24 may 2021-ci il

ANR Audit

"ANR Audit" MMC
AZ1096, Bakı
şəhəri, Q.Qarayev
prospekti 84/38
Tel: +99450 223 60 75
anraudit@office.az

MÜSTƏQİL AUDİTORUN HESABATI

"Qala Maşınqayırma" Açıq səhmdar cəmiyyətinin səhmdarlarına

Rəy

Biz "Qala Maşınqayırma" Açıq səhmdar cəmiyyətinin (bundan sonra Cəmiyyət) 31 dekabr 2020-ci il tarixinə maliyyə vəziyyətinə dair hesabatından, məcmu gəlirlərə dair hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2020-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

Rəy üçün əsaslar

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

Maliyyə hesabatlarına görə rəhbərliyin və Cəmiyyətin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır. İdarəetməyə məsul şəxslər Cəmiyyətin maliyyə hesabatlarının təqdim etmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.


"ANR Audit" MMC-nin direktor-auditoru
Bakı şəhəri, Azərbaycan Respublikası
24 may 2021-ci il

Namiq Abbaslı

Gömrük Komitəsi "Azərimed"dən COVİD-19-a qarşı 6 milyon manatlıq dərman alır

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət idarəsinin Mərkəzi Hospitalı Azərimed Qapalı Səhmdar Cəmiyyəti ilə 8 müqavilə bağlayıb.

Banker.az xəbər verir ki, müqavilələrdə İntensiv terapiya tibbi ləvazimatların, Tibbi ləvazimat və dezinfeksiya vasitələrinin, Reaktiv və PZR testlərin, antibakterial və Mukolitik dərman vasitələrinin, Narkotik və Hepatoprotektor dərman vasitələrinin, Antiviral dərman vasitələrinin, İmmunostimulə edici dərman vasitələrinin və Antifunqal və İmmunomodulə edici dərman vasitələrinin satınalınması nəzərdə tutulur.



Xarici müəssisələr əsas kapitala 1 milyard 620,2 milyon manat vəsait yönəldiblər



Cari ilin yanvar-aprel aylarında xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala 1 milyard 620,2 milyon manat vəsait yönəldilib. Dövlət Statistika Komitəsindən verilən məlumata əsasən, xarici ölkələr və beynəlxalq təşkilatların vəsaitləri hesabına əsas kapitala yönəldilmiş vəsaitin 1 milyard 497,4 milyon manatı (92,4 faizi) Birləşmiş Krallıq, ABŞ, İsveçrə, Türkiyə, Yaponiya, Virgin adaları, Norveç, Malayziya, Fransa, Rusiya və İran sərmayədarlarına məxsus olub.

Neft qiymətləri müxtəlif istiqamətlərdə dəyişib

Dünya birjalarında neft qiymətləri müxtəlif istiqamətlərdə dəyişib.

Londonun ICE ("Inter-Continental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 0,11 dollar artaraq 68,76 dollar, Nyu-Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 0,03 dollar ucuzlaşaraq 66,04 dollar olub.

SOCAR Ukraynada gəmilər üçün yeni yanacaqdoldurma məntəqələri açıb

SOCAR Ukraynadakı nümayəndəliyi olan "SOCAR Energy Ukraine" şirkəti iki neft bunker gəmisini - kiçik və ortaölçülü gəmilərin yanacaqla doldurulması üçün hazırlanmış su doldurma stansiyalarını işə salıb.

Yanacaqdoldurma məntəqələrindən (YDM) biri Kiyevdə "Muromets" parkının ərazisində, ikincisi isə Odessa vilayətində, "Savinyon" yaxt-klubunun akvatoriyasında yerləşir.

Qeyd edək ki, "SOCAR Energy Ukraine" SOCAR-ın törəmə şirkətidir. SOCAR-ın Ukraynadakı nümayəndəliyi 2008-ci ildə açılıb. Hazırda premium-klass yanacaqdoldurma məntəqələri şəbəkəsinə 60-a yaxın kompleks və 4 neft bazası daxildir, onlar Ukraynanın 11 vilayətində fəaliyyət göstərir.

BP Azərbaycanda potensialın artırılmasına dəstəyini davam etdirir



"BP Azerbaijan" şirkəti öz tərəfdaşları ilə birlikdə 2011-ci ildə əsasını qoyduğu və 8 il uğurlu fəaliyətdən sonra 2018-ci ildə davamlı və müstəqil idarə olunması üçün Bakı Ali Neft Məktəbinə təhvil verdiyi Layihə İdarəetmə Məktəbinə (LİM) dəstək verməyə davam edir.

Şirkətdən bildirilib ki, bu dəstəyin və ölkədə yerli imkanların və ümumi potensialın artırılmasına yönəlmiş öhdəliyinin tərkib hissəsi kimi, BP Azərbaycan hazırda 2021-ci il LİM proqramında 20 nəfərin iştirakını maliyyələşdirir. Hər qurumdan 10 nəfər olmaqla, bu iştirakçılar Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin nümayəndələridir.

BP-nin bu dəstəyinin ümumi məbləği 170 min AZN-dir.

LİM layihəsi yerli menecerlərin müfəssəl beynəlxalq layihə idarəetmə proqramından istifadəsini təmin etmək məqsədilə xüsusi olaraq tərtib edilib. Ümumilikdə 7 moduldan ibarət olan LİM proqramını tam bitirənlər ABŞ-ın Dyuk Universitetinin qlobal miqyasda tanınan "Layihə İdarəetmə üzrə Peşəkar Sertifikat"ını (" Professional Certificate in Project Management") əldə edir və DCPM ("Duke Certified Project Managers") dərəcəsini qazanırlar.

UŞAQLARI QORUNMAQ EHTİYACINDAN XİLAS EDƏK

Qoruyaq körpələri!
Körpələrin gözləri heç vaxt yaşla dolmasın.
Dünya körpə gözündə göz yaşına dönməsin.
Qoruyaq körpələrin məhəbbət baxışını,
Müqəddəs gülüşünü,
Ürəklərində heç vaxt sevinc odu sönməsin.

Bu şeiri çoxdan yazmışam. Gənc idim. Ziyalı, aylıq maaşa baxan ailədə böyüyürdüm. Elə ciddi problem görmürdüm həyatımda. İndi də o illərimi həsrətlə xatırlayıram. Müharibə yaşamamışdım, amma müharibə mövzusunda olan filmlərdə gördüyüm, kitablarda oxuduğum uşaq ölümləri, onların ac-yalavac, səfil həyatları ağlıma, ürəyimə təsir edib həmişə.

Sovet dövründə müharibə mövzusunda çox güclü filmlər çəkilirdi. Müharibənin dəhşətləri adamın iliyinə işləyirdi. Böyüdükcə "dövlətlər niyə müharibə edir?" sualı beynimə yapışıb qalıb. Sonralar bildim ki, hər vətəndaş dövlətini qorumalıdır. Vətən o qədər müqəddəsdir ki, onun üçün canından keçməyə hazır olmalısan. Torpaqlarımıza qəsd ediləndə bu duyğunun ali olduğunu bir daha anladım.

Əslində insan həyat uğruna, xoşbəxtlik uğruna savaşmalı, yaşamalıdır. Xoşbəxt günləri qeyd etməliyik biz. Təntənə ilə qeyd etməliyik. Uşaqların Beynəlxalq Müdafiə günü kimi.

Bu günü qadınlarımız tarixiləşdirib. Qadınların – anaların dünyaya "müharibələrə yox" mesajıdır. Hələ Birinci Dünya savaşından dəhşətə gələn ingilis sosial reformçusu Eglantye Jebb (1876-1928) kimi. Müharibənin gətirdiyi acıları anlayan xanım səfalətə düçar olan, aclıq çəkən Avstriya və alman uşaqlarına yardım etmək üçün 1919-cu ildə "Uşaqları xilas edin" (Save the Children) fondu yaradır. 1959-cu ildə BMT tərəfindən müəyyən redaktə, dəyişikliklərlə qəbul olunan, 1989-cu ildə isə Uşaq Hüquqları Konvensiyasının təkanvericilərindən olan ilk Uşaq Hüquqları Bəyannaməsinin ilkin variantını da hələ 1925-ci ildə E.Jebb hazırlayıb. 1 iyun 1950-ci ildə "Qadınların Beynəlxalq Konfransı"nda isə təkliflər səslənib və BMT-nin Baş Assambleyası tərəfindən 1 iyunun Uşaqların Beynəlxalq Müdafiə Günü kimi qeyd olunması qərara alınıb. Beynəlxalq gündür, bütün dövlətlər qeyd edir. Biz də qeyd edirik. Hətta cənab İlham Əliyevin 22 dekabr 2008-ci il tarixli sərəncamı ilə 2009-cu il Uşaq ili elan edilmişdi. **Hər il müxtəlif maraqlı tədbirlər hazırlanır, uşaqlara "sənin bayramındır" deyirik - nə gözəl. Simvolik olaraq bayram kimi qeyd etsəydik sevinərdim. Sevinclidir, amma bu sevinc ağrılı, ağlayan sevincdir. Çünki uşaqları - dünyamızı müdafiə etməyə, qorumağa məcburuq, ehtiyacdır artıq. Yada salmalıyıq uşaqları - yadımıza salmalıyıq. "NİYƏ"si narahat edir. Yəqin ki, bu "niyə" savaşlara qarşı "Durun! Dayanın!" harayıdı.**

İnsanlar bir-birindən qorunmaq üçün evlər, məhlələr, kəndlər, şəhərlər, dövlətlər - sərhədlər yaratdılar. İnsanların ağlı, savadı, dünyagörüşü artdıqca sərhədlər də artıb, möhkəmlənib, daha güclü qorunub. Atom fizikası, radioaktivlik, nüvə reaksiyaları - filan keçirəm uşaqlara. Hələ 2500 il əvvəl Demokrit cisimlərin kiçik zərrəciklərdən - atomlardan təşkil olunduğunu deyib. Atomun quruluşu 25 əsrə yaxın öyrənilib, hələ də öyrənilir. Bapbalaca atom bəşəriyyəti həmişə təəccübləndirir. Bəlkə Bekkerel təsadüfən radioaktivliyi - nüvələrin özbaşına şüalanmasını müşahidə etməsəydi, Pyer və Mariya Kurilər, ya başqa alimlər bu hadisəni tədqiq etməsəydi, Pezorford da atomun quruluşunu verə bilməzdi. Nüvə reaksiyaları da öyrənilməzdi, nüvə silahları da yaranmazdı… Nə bilim o qədər fikir yürüdürəm ki. Yəqin, Demokrit, Bekkerel, Rezorford kimi nəhənglərin ağlına gəlməyib ki, insanlar atomu öyrənə-öyrənə bir gün kütləvi qırğın silahları düzəldəcək bir-birlərini məhv etməkçün. Təbii ki, atomu əvvəl-axır kimsə kəşf edəcəkdi. Əvvəl-axır insanlar şeytanla işbirliyi yapacaqdı. Və bir gün sevginin yavaş-yavaş öləcəyi gümanlıqdan çıxacaqdı.

Uşaqları qorumaq kimi ehtiyacımız varsa, insanlığı qorumağa ehtiyacımız var, deməli sevgi ölür. Yəni, tarix boyu çəkişmələrin, müharibələrin baş verməsini heç cür ağlım almır. Hamı həyata bir dəfə gəldiyini, necə yaşasa da, öləcəyini bilir, özü də dəqiq bilir, güman yeri olmadan bilir. Nəinki ayrı-ayrı insanların, dövlətlərin də "mənəmlik iddiası"nı başa düşmürəm. Niyə döyüşürlər, niyə müxtəlif bəhanələrlə həyatı cəhənnəmə döndərirlər?

Vətəni sevməli, qorumalısan. Amma başqalarının torpaqlarını işğal etmək, Vətənini parçalamaq uğruna savaşmaq, müharibələrə sürükləmək sevgisizlikdən doğur. Bu, insanlıq üçün təhlükədir.

Sevgini yaşatmaq lazımdır.

Özünü demokratik dövlət kimi tanıdan, çoxumuzun da belə hesab etdiyi ABŞ niyə silahlanmaya sərf olunan pullara görə birincilərdəndi? **Dünyada səfil, ac-yalavac, evsiz-eşiksiz bu qədər insan varsa, nəhəng, demokratik dövlətlər niyə silaha bu qədər pul xərcləyir? Öz nəhəngliyini qorumaq üçünmü?** Əgər insanlar silah düzəldirsə, deməli sevgi ölür. Sevgini ölməyə qoymayaq. Sevgini yaşadaq ki, uşaqların kimsədən qorunmaq ehtiyacı olmasın.



Övladlarımızı sevirik. Övlad acısından acı heç nə yoxdur. Bu acını yaşatmaqdan dəhşətli də heç nə yoxdur. Daha böyük günah yoxdur. Bu dəhşətlə necə yaşamaq olar?! Uşaqları necə süngüyə taxmaq, güllələmək, kəsib-doğramaq olar?! Məncə, bunu heç şeytan da eləməz. Bunu elə insan edər. İnsan nə desən edər. Yaşadığı ortamı cənnət də edər, cəhənnəmə də döndərər.

Bunun üçün sevgiyə sadiq olmalıyıq. Uşaqların Beynəlxalq Müdafiə Gününə əsl sevinc, sevgi arzulayıram. Özümüzü özümüzə xəyanətdən xilas edək. Adi rəngli şarlara yer kürəsi boyda sevinən uşaqlarımızı, həyatımızı bizdən asılı olmayan səbəblərdən qoruyaq. Uşaqlar üçün YER kürəsi elə sevindikləri, sevdikləri rəngli şardır. Onlar bu şarlar partlayanda qorxurlar, niyə partladığının elmi izahını bilməsələr də, çox dolanda partladığının şahidi olurlar. Yer kürəmizi, həyatımızı şərdən, haqsızlıqdan, nifrətdən, şeytanlardan qoruyaq. Qoruyaq ki, partlamasın, parçalanmasın. Bütövlüyü qoruyaq. Sevgini ölməyə qoymayaq. SEVGİYLƏ böyüyək, yaşayaq. Sevgi həmişə QALİB olsun.

Kəmalə Abiyeva



"YouTube" istifadəçilərinə yeni ödəmələr tətbiq olunacaq

"YouTube" videohostinqi iyunun 1-dən etibarən yeni istifadə qaydalarını tətbiq edir.

Yeni qaydalara görə hostinqin seçdiyi istənilən materialda daha çox reklam yerləşdirilə bilər. Bu şərt təkcə YPP (YouTube Tərəfdaşlıq Proqramı) çərçivəsində göstərilən kanallara şamil olunmur. "Siz "YouTube"a öz materiallarınızdan gəlir əldə etmək hüququ verirsiniz ki, bu da həmin materiallarda reklam yerləşdirmək, yaxud onlara baxmaq üçün



ödəniş tətbiq etmək yolu ilə ola bilər. Bu razılaşma sizə hər hansı ödəniş haqqını vermir", – yeni qaydalarda qeyd olunur. Həmçinin reklam yerləşdirməsinin yalnız böyük material yerləşdirənlərin iştirak etdiyi YPP çərçivəsində ola bilər. Belə material sahibləri YPP çərçivəsində yerləşdirilən reklamlardan gəlir payına haqq qazanır.

ABŞ hüdudlarından kənarda olan, lakin bu ölkədə baxışlar toplayan material sahibləri də əlavə ödənişə mükəlləf olacaqlar. Bunlar ABŞ qanunlarına görə qonorar hesab ediləcək və "YouTube"dan gəlir əldə edən material sahibləri vergi məlumatlarını "Google AdSence" portalına təqdim etməlidirlər. Bununla yanaşı, hər hansı şəxsi ondan xəbərsiz açıqlayan məlumatlar toplana bilməyəcək.

Ləğv prosesində olan "Amrah Sığorta" ASC-nin səhmdarlarının ümumi yığıncağı keçiriləcək

AMRAH SIĞORTA

27 may 2021-ci il tarixdə ləğv prosesində olan "Amrah Sığorta" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının ümumi yığıncağı təxirə salınaraq, 28 iyun 2021-ci il tarixdə, saat 15:00-da keçiriləcəkdir. Yığıncaq Bakı şəhəri, Nərimanov rayonu, R.Muxtarov küçəsi 38 ünvanında keçiriləcək.

Yığıncaqda ləğv prosesində olan "Amrah Sığorta" ASC-nin ləğvetmə prosesinin yekunu haqqında məsələlərin müzakirəsi nəzərdə tutulmuşdur.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Akif Musayev, Vahid Novruzov, Ədalət Muradov, Qüdrət Kərimov, Elşən Hacızadə, Süleyman Qasımov, Mirqasım Vahabov, Bəyalı Ataşov, Məiş Əhmədov, Aydın Hüseynov, Rəsul Balayev, Müşfiq Atakişiyev, Zahid Məmmədov, Aytən Səmədzadə, Elşad Səmədzadə

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, «Azermedia» MMC nəşriyyatı mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500